*Təhsil millətin gələcəyidir!*

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

1 avqust 2026-cı il №28 (9181) www.muallim.edu.az muallim@media.edu.az

## 1 AVQUST AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜDÜR!

# Prezident İlham Əliyev Qırğız Respublikasının ali dövlət mükafatı – “Manas” ordeni ilə təltif olunub



### Azərbaycan Prezidenti İlham Əliyev

- Hörmətli Sadır Nurqojoyeviç.

Əvvəlcə, bu yüksək mükafata görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istərdim. Mən onu Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi işində fəaliyyətimə Sizin verdiyiniz qiymət hesab edirəm. Sizinlə əməkdaşlıq illərimiz ərzində ölkələrimiz çox böyük və şərəfli yol qət edib, dövlətlərarası münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib... Bizim mehriban, dost və qardaş münasibətlərimiz ölkələrimiz arasında bugünkü uğurlu inkişafın mühüm amilidir. Həmçinin mənim ünvanıma söylədiyiniz xoş sözlərə, bu yüksək ordenə görə Sizə səmimi minnətdarlığımı bildirirəm və Sizi əmin edirəm ki, Qırğızıstan-Azərbaycan münasibətlərinin ölkələrimizin və xalqlarımızın rifahı naminə davamlı inkişafı üçün bundan sonra da bütün səylərimi göstərəcəyəm.

### Qırğızıstan Prezidenti Sadır Japarov

- Hörmətli İlham Heydər oğlu.

İcazə verin, göstərilən hörmət və dostluq əlamətinə görə Sizə səmimi minnətdarlığımı bildirim. Azərbaycan Respublikasının yüksək dövlət mükafatlarından birini - “Heydər Əliyev” ordenini Sizin əlinizdən qəbul etmək mənim üçün böyük şərəfdir. Bu mükafat mənim üçün xüsusi əhəmiyyətə malikdir, çünki müasir Qırğızıstan-Azərbaycan münasibətlərinin formalaşmasının əsasını qoyan görkəmli dövlət xadiminin, Azərbaycan xalqının böyük oğlunun adını daşıyır. Mən bu ordeni xalqlarımız arasında möhkəm münasibətlərin, strateji tərəfdaşlığa və müttəfiqliyə ortaq sadiqliyin rəmzi kimi qəbul edirəm. Bu xüsusi jestə, Qırğızıstana göstərdiyiniz diqqətə, xalqlarımızın yaxınlaşmasına daimi səylərinizə görə Sizə minnətdaram.

*Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib (31 İyul 2026-cı il)*

## 15 yaşınadək oğlanlar arasında ilk dünya çempionatı və festivalı Azərbaycanda keçiriləcək

### Prezident İlham Əliyev Sərəncam imzalayıb

15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalı 2026-cı ildə Azərbaycanda keçiriləcək.

Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.

Sərəncama əsasən, tədbirin 2026-cı il oktyabrın 22–31-də Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilib.

Beynəlxalq səviyyəli bu idman tədbirinin yüksək səviyyədə təşkili məqsədilə Nazirlər Kabinetinə və aidiyyəti qurumlara bir sıra tapşırıqlar verilib.

Qeyd olunur ki, idman tarixində ilk dəfə keçiriləcək 15 yaşınadək oğlanlar arasında futbol üzrə dünya çempionatı və festivalına Azərbaycanın ev sahibliyi etməsi ölkəmizin beynəlxalq idman aləmində artan nüfuzunun daha da möhkəmlənməsinə, futbolun inkişafına və Azərbaycanın mötəbər yarışların təşkili sahəsində qazandığı təcrübənin zənginləşməsinə xidmət edəcək.

# Mir Cəlal nəsrinin poetikası



XX əsr Azərbaycan humanitar fikri milli mədəniyyət tarixində yalnız bədii-estetik dəyərlərin deyil, həm də elmi təfəkkürün, filoloji metodologiyanın və ziyalı məsuliyyətinin formalaşdığı mühüm inkişaf mərhələsi kimi xarakterizə olunur. Bu dövrdə meydana çıxan görkəmli elm və ədəbiyyat xadimləri milli düşüncə sisteminin əsas istiqamətlərini müəyyənləşdirmiş, klassik irsin müasir elmi prinsiplərlə yenidən qiymətləndirilməsinə, Azərbaycan dilinin və ədəbiyyatının nəzəri əsaslarının zənginləşdirilməsinə mühüm töhfələr vermişlər.

Bax səh.4

# Rəqəmsal dövrdə Azərbaycan dilini necə qoruyaq?

Azərbaycan dili milli kimliyimizin, mədəni irsimizin və dövlətçiliyimizin əsas sütunlarından biridir. Lakin süni intellektin mətn yazdığı, sosial şəbəkələrin gündəlik ünsiyyətə yön verdiyi, yeni söz və ifadələrin sürətlə yayıldığı müasir dövrdə dillər də yeni sınaqlarla üzləşir. Belə bir vaxtda Azərbaycan dilinin zənginliyinin qorunması, dövlət dilinin nüfuzunun artırılması və gənc nəsildə düzgün nitq mədəniyyətinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Bax səh.3




## “Müəllimin pedaqoji gündəliyi”

Bax səh.5

## 5 qat RFO qalibi Qarabağ Universitetini seçib

Bax səh.6

## Ölkə birincisi Sumqayt məktəblisi

Bax səh.7

## Tələbə futzal komandamızdan uğurlu nəticə

Bax səh.8

# İyul çağırışının gedişatı müzakirə olunub





**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatında müddətli həqiqi hərbi xidmətə iyul çağırışının gedişatı ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.**

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimovun sədrliyi ilə keçirilən iclasda Azərbaycan Prezidentinin “Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Sərəncamının icra vəziyyəti müzakirə olunub.

Dövlət Xidməti tərəfindən 2026-cı ilin iyul çağırışının uğurla icra edilməsi və Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsi məqsədilə zəruri işlərin görüldüyü diqqətə çatdırılıb.

Görüşdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov da iştirak edib.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq Qərarı ilə yaradılmış Mərkəzi Çağırış Komissiyası vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması ilə bağlı rayon (şəhər) çağırış komissiyalarına rəhbərlik və onların fəaliyyətinə nəzarəti həyata keçirir. Mərkəzi Çağırış Komissiyasında 15 dövlət qurumu təmsil olunur.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

# Bakı Qızlar Universitetinin təhsil fəaliyyəti dayandırılıb

**"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, akkreditasiya təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun və onun statusunun müəyyən edilməsini təsdiq edən prosedurdur və hər 5 ildən bir həyata keçirilir.**

10 iyul 2026-cı il tarixində keçirilmiş Akkreditasiya Şurasının iclasında Bakı Qızlar Universiteti üzrə müvafiq Akkreditasiya Komissiyaları tərəfindən hazırlanmış institusional və proqram akkreditasiyası üzrə yekun qiymətləndirmə hesabatları müzakirə edilib.

Aparılmış müzakirələrin və səsvermənin nəticələrinə əsasən, ali təhsil müəssisəsinin institusional və proqram akkreditasiyası üzrə yekun nəticə "uyğun deyil" olaraq qiymətləndirilib və Bakı Qızlar Universitetinin akkreditasiya olunmuş hesab edilməməsi barədə qərar qəbul edilib.

Qərar universitetdə aparılmış qiymətləndirmə zamanı ali təhsil müəssisəsinin fəaliyyətinin müxtəlif istiqamətlərini əhatə edən, dövlət təhsil standartlarının, normativ hüquqi aktların və keyfiyyət təminatı tələblərinin yerinə yetirilməsində ciddi uyğunsuzluqların müəyyən edilməsi əsasında qəbul olunub.

Akkreditasiya Şurasının qərarı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”nın 4.37-ci bəndi nəzərə alınaraq, Elm və Təhsil Nazirliyi tərəfindən ali təhsil müəssisəsinin təhsil fəaliyyətinin icrasının dayandırılması ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş prosedurlara başlanılıb.

Bununla əlaqədar olaraq, qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqların xarakteri və miqyası, onların ali təhsil müəssisəsinin fəaliyyətinin əsas istiqamətlərinə təsiri, habelə qısa müddətdə aradan qaldırılmasının mümkünlüyünü təsdiq edən əsaslı sübutların olmadığı nəzərə alınaraq, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, təhsil müəssisəsinə verilmiş lisenziyanın dayandırılması və ya ləğv edilməsi məsələsinə baxılması üçün lisenziya verən səlahiyyətli orqana müvafiq təqdimat göndərilib.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi 30 iyul 2026-cı il tarixli 92 nömrəli Sərəncamı ilə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, Bakı Qızlar Universitetinə verilmiş 2018-ci il 11 sentyabr tarixli EL-358/2018 nömrəli lisenziyanı ləğv edib.

Göstərilənlər nəzərə alınaraq, Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”nın 4.37-ci bəndi nəzərə alınaraq, Bakı Qızlar Universitetində təhsil alan tələbələrin təhsilinin fasiləsizliyinin və təhsil hüquqlarının qorunmasının təmin edilməsi məqsədilə onların digər ali təhsil müəssisələrinə ixtisaslarına uyğun köçürülməsi təmin ediləcək.

Elm və Təhsil Nazirliyi bir daha bildirir ki, akkreditasiya prosesinin əsas məqsədi ali təhsildə keyfiyyətin təmin edilməsi, tələbələrin hüquqlarının qorunması və ali təhsil müəssisələrinin fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təşkil olunmasının təmin edilməsidir.

# Nazir müavini Ağdaş rayonuna səfər edib





İyulun 31-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Ağdaş rayonuna səfər edib.

Səfər çərçivəsində nazir müavini Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Hüseynzadə ilə birlikdə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra Həsən Həsənli vətəndaşların qəbulunu keçirib. Qəbula yazılmış vətəndaşları dinləyən nazir müavini müraciətlərin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar verib.

Səfər çərçivəsində nazir müavini Mərkəzi Aran Regional Təhsil İdarəsinin əməkdaşları ilə görüşüb. Görüşdə regionda təhsilin inkişafı istiqamətində görülən işlər, qarşıda duran vəzifələr, təhsil müəssisələrinin idarə olunması, tədrisin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Həsən Həsənli əməkdaşların təklif və fikirlərini dinləyərək fəaliyyətin daha da təkmilləşdirilməsi istiqamətində müvafiq tövsiyələrini çatdırıb.

Nazir müavini M.Şeyxzadə adına internat tipli təbiət fənləri təmayüllü gimnaziyada aparılan təmir işləri ilə də tanış olub, görülən işlərin gedişi barədə məlumat verilib.

Daha sonra təhsil müəssisəsində fəaliyyət göstərən STEAM otaqlarına baxış keçirilib, burada yaradılmış müasir tədris mühiti, şagirdlərin praktiki bacarıqlarının inkişafına xidmət edən imkanlar və tədris prosesində tətbiq olunan innovativ yanaşmalarla tanışlıq olub. Təhsil infrastrukturunun müasirləşdirilməsi və keyfiyyətli təhsil mühitinin təmin olunması istiqamətində həyata keçirilən işlərin əhəmiyyəti vurğulanıb.

# "Maarifçi" tələbə-məzunlar





**Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən IV “Maarifçi” tələbə-məzun proqramının müsahibə mərhələsini uğurla başa vuran iştirakçılar Elm və Təhsil Nazirliyində, ölkənin 12 şəhər və rayonunda yerləşən struktur bölmələrində, eləcə də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində təcrübəyə başlayıblar. Onlar 53 nəfərdir. 4 ay davam edəcək proqram çərçivəsində iştirakçılar müxtəlif təlim və görüşlərdə iştirak edərək peşəkar və sosial bacarıqlarını inkişaf etdirmək imkanı əldə edəcəklər.**

### Tələbəlikdə Prezident təqaüdçüsü olub, Türkiyədə Azərbaycan bayrağını qaldırıb, indi də “Maarifçi” oldu

Aralarında 22 yaşlı Hüseyn də var. “Maarifçi” Hüseyn Quliyev ADA Universitetinin tam təqaüdlü magistrantıdır. O, Bakı Dövlət Universitetinin “Tarix” ixtisası üzrə məzunudur və növbəti tədris ilindən burada “Diplomatiya və beynəlxalq əlaqələr” ixtisası üzrə magistr təhsili alacaq.

Hazırda, “Maarifçi” tələbə-məzun proqramında iştirak edir. İyulun 15-dən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsində təcrübəyə başlayıb.

### “Heydər Əliyev adına təqaüdə layiq görüldüm”

“2021-ci ildə 11 illik tam orta təhsilimi bitirib ali təhsil müəssisələrinə qəbul imtahanlarında 553 bal toplayıb: Bakı Dövlət Universitetinin Tarix fakültəsində “Tarix” ixtisası üzrə ingiliscə oxudum. Bu fakültədə yeni elmlərə yiyələndim, eyni zamanda möhkəm dostluq əlaqələri qurdum”.

Həyatının ən böyük uğuru sayılan Prezident təqaüdünə layiq görülüb: “Universitetdə 1 dərs belə buraxmadım və ümumi orta göstəricimi ildən ilə yüksəltdim. 2023-cü il dekabr ayının 16-da Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Heydər Əliyev adına təqaüdə layiq görüldüm. Bu, həyatımda dönüş nöqtəsi idi”.

O gündən daha çox oxuyan Hüseyn üçün uğur qapıları açılıb. “Robotex international” yarışında kapitanı olduğu “Xarıbülbül” komandası qalib gəlib: “Həmin yarışlarda çox nüfuzlu universitetlərin komandalarına qalib gələrək birinci və ikinci yerlərə layiq görüldük. Beləliklə, bayrağımızı qardaş Türkiyədə qalib olaraq dalğalandırmağa nail olduq”.

Onun tələbəlik həyatını zənginləşdirən fəaliyyətlər arasında könüllülük xüsusi yer tutub. “İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025” layihəsinin iştirakçısı olub. Qoşulmama Hərəkatının Gənclər təşkilatına üzv qəbul edilib. Azərbaycan Xarici İşlər Nazirliyinin Diplomatiya Könüllüləri proqramı çərçivəsində Afrika və Yaxın Şərq idarəsində 6 aylıq təcrübə proqramını uğurla tamamlayıb. Rəqəmsal İdeya müsabiqəsində iştirak edib.

Onda çalışqanlıq və məsuliyyətlə yanaşı, əsl “Maarifçi” intizamı var. Hüseyn Quliyev məhz intizam, məsuliyyət və çalışqanlığı sayəsində universitetdə rekordlara imza atıb: “2025-ci ildə universiteti ən yüksək orta müvəffəqiyyət göstərici ilə bitirdim. Bu, Tarix fakültəsində də rekord göstərici idi”, - deyən Hüseyn universitetdə qrup nümayəndəsi kimi də etibar qazanıb. İndi isə ADA Universitetinin “Diplomatiya və beynəlxalq əlaqələr” ixtisasında tam təqaüdlə magistr təhsili alacaq.

### “Çox öyrədici mühit var”

Universitet rekordçusu “Maarifçi” olmaq üçün bir az araşdırma aparıb: “Proqram haqqında dost-tanışlardan çox eşidirdim. Sosial şəbəkələrdə proqrama qeydiyyat başladığını öyrənən kimi müraciət etdim. Müsabiqə şəffaf, müsahibə çox intellektual oldu. Bütün verilən suallara cavablarımı təhlillərlə verdim”.

Başqa bir təcrübə proqramını yarımçıq qoyan Hüseyn Quliyev artıq 15-ci gündür ki, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsində işi öyrənir: “Çox öyrədici mühit var. Əməkdaşlar çox mehriban və gülərüzdürlər. Təcrübəçi olsam da, özümü buraya aid hiss edirəm. Hətta elə bir mühit yaradıblar ki, sanki mən onlara yardım edirəm, əslində onlar mənə, şəxsi inkişafıma yardım edirlər. Onlardan dəstək, işimdən həzz alaraq verilən tapşırıqları yerinə yetirirəm”.

### Təbiətsevər “Maarifçi”

Hüseyni dinlədikcə hiss edirsən ki, işini yarımçıq qoyan biri deyil. “Uşaqlıqdan təbiəti çox sevirəm, boş vaxtlarımda ağac əkmək, əkdiyim ağaclara qulluq eləmək xoşuma gəlir. İlk əkdiyim ağac söyüd olub, indi 8 yaşı var. Deyərdim ki, təbiət həyatda ən böyük hobbimdir”.

Hüseyn yeməyi də çox sevir, özü də özü bişirib yeməyi: “Hobbilərimdən biri də kulinariyadır, milli yeməklərimizi bişirib yeyir, bundan zövq alıram”.

### “Təhsil sahəsində inkişafın təmin edilməsində rol almaq istəyirəm”

Başqa sözlə, Hüseyn həyatının daha bir parlaq səhifəsini yazmağa hazırlaşır. 4 ay “Maarifçi” olacaq, sonra tam təqaüdlü magistrant. Həyatının bu səhifələrini də eyni məsuliyyət, eyni intizamla dolduracaq: “Gələcəkdə isə Elm və Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr sektorunda fəaliyyət göstərmək və universitetlərarası əlaqəni qurmaq və təhsil sahəsində inkişafını təmin edilməsində rol almaq istəyirəm”.

### Sinifdən çıxsa da, təhsildən uzaqlaşmadı, “Maarifçi” oldu

“Məktəbdə müəllim kimi gördüyüm məsələlərin arxasında hansı məlumatların dayandığını, nələrə əsaslandığını indi başqa prizmadan görürəm. Əvvəllər məktəbi bir müəllimin gözü ilə tanıyırdım, indi isə təhsil sisteminə məlumatların dili ilə, rəqəmlərdən baxmağı öyrənirəm. Mənə ən çox zövq verən də budur - rəqəmlərin arxasında insanların, məktəblərin və şagirdlərin hekayəsini görə bilmək”.

İyulun 15-dən Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil şöbəsinin Monitorinq və qiymətləndirmə sektorunda data analitikası istiqaməti üzrə təcrübəyə başlayan gənc “Maarifçi” Məhsəti Tağızadə belə deyir. O, təhsilə tamamilə fərqli baxış bucağından baxmağa başlayıb və deyəsən, təhsili bu mövqedən görmək çox xoşuna gəlib: “Düşünürəm ki, “Maarifçi” yoluma çıxan maraqlı bir keçid oldu - kənd məktəbində riyaziyyat müəllimliyindən dövlət sektorunda analitik fəaliyyətə. Başqa, tam fərqli bir yol kimi görünsə də, əslində, dəyişməyən bir şey var: yenə də təhsilin izindəyəm. Sadəcə əvvəllər bir sinfin inkişafına töhfə verməyə çalışdımsa, indi fəaliyyətim daha geniş sahəni əhatə edir və burada cəmi bir neçə ay da olsa, təhsil sisteminin inkişafı üçün çalışıram. Mənim üçün bu təcrübənin ən dəyərli tərəfi budur”.

### İlk təcrübə müəllimlik oldu

Məhsəti Tağızadə Şirvan rayonundandır. Şirvan şəhərində yerləşən Sadıq Hüseynov adına 1 nömrəli tam orta məktəb-liseydə təhsil alıb. Məktəb illəri çox maraqlı keçib və onun fikrincə, peşə seçiminə səbəb olan maraqları məhz məktəb mühitində formalaşıb və o müəllim olmağa qərar verib: “Bakı Dövlət Universitetində “Riyaziyyat müəllimliyi” ixtisasını bitirdikdən sonra müəllimlərin işə qəbulu imtahanında iştirak etdim və Sabirabad rayonunun Qaragüney kənd tam orta məktəbində ilk dəfə sinfə müəllim kimi daxil oldum. O günü heç unutmuram və elə hiss edirəm ki, heç vaxt unutmayacağam. Həm həyəcan var idi, həm məsuliyyət. Sadəcə o gün deyil, müəllim kimi fəaliyyət göstərdiyim bir il boyunca həyəcanım azalmadı. Məktəb mənim üçün, sadəcə ilk iş yeri deyildi, məllimliyin məsuliyyətini, tədris prosesinin incəliklərini, sinif idarəetməsini və şagirdlərə fərdi yanaşmağın əhəmiyyətini praktik olaraq mənimsədiyim dəyərli bir mərhələ idi. İnsanlarla ünsiyyəti, səbirli olmağı, fərqli şəraitdə işləməyi və ən əsası, təhsilin həyatlara necə toxunduğunu öyrətdi”.

### Məktəbi kompüterə, sinfi rəqəmlərə dəyişdi

Məktəbin canlı mühiti, müəllimlərinin onda qibtə oyadan qayğısı məhz müəllimliyi seçməsinə səbəb olsa da, içində yatan arzu onu rahat buraxmayıb: “Düzünü desəm, müəllimlik ilk peşəm olsa da, uşaqlıq arzum kompüter elmləri idi. Kiçik yaşlarımdan kompüterlərlə maraqlanır, texnologiya haqqında öyrənməyi sevirdim. Zaman keçdikcə bu maraq məqsədə çevrildi. Müəllim kimi çalışarkən də bu arzudan vaz keçmədim. İşləyə-işləyə magistratura imtahanına hazırlaşdım və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Kompüter elmləri” ixtisasına qəbul oldum”.

Kompüter elmlərinə maraq göstərsə də, müəllim kimi sinfə girməyi, ya da “Kompüter elmləri” ixtisası üzrə təhsil almağa hazırlaşdığı bir dövrdə “Maarifçi” tələbə-məzun proqramında iştirak şansı qazanmağını başqa necə izah etmək olar: “Proqrama qatılmaq üçün ilk müraciətimdə seçildim və bunu öyrənəndə çox sevindim. “Maarifçi”yə qatılmaq mənim üçün, sadəcə bir müsabiqədə qələbə qazanmaq istəyi deyildi, mən bunu özümə doğru yolda olduğumu göstərən ismarıc kimi qəbul etdim”.

Sevincinin başqa səbəbi də olub: “Seçim prosesində müşahidə etdim ki, namizədlər tamamilə bilik və potensialına əsasən qiymətləndirilirlər. Nəticədə güclü rəqabət mühiti formalaşdı və düşünürdüm ki, belə bir mühitdə seçilənlərdən olmaq kifayət qədər çətin olacaq. Çətin oldu, amma seçildim. Belə bir mühitdə təcrübə keçmək o deməkdir ki, burada öyrənəcəyim çox şey var”.

İndi Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil şöbəsinin Monitorinq və qiymətləndirmə sektorunda data analitikası istiqaməti üzrə işi öyrənməyə başlayıb. 22 yaşlı gənc “Maarifçi” proqramından sonra harada olacağını bilmir. Amma harada olmağından asılı olmayaraq, verilən tapşırıqlara riyaziyyatçı dəqiqliyi, müəllim məsuliyyəti, “Maarifçi” intizamı ilə yanaşacaq, işlərin öhdəsindən layiqincə gəlməyə çalışacaq.

**Ruhiyyə DAŞSALAHLI**

# 1 AVQUST AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜDÜR!

**Azərbaycan dili milli kimliyimizin, mədəni irsimizin və dövlətçiliyimizin əsas sütunlarından biridir. Lakin süni intellektin mətn yazdığı, sosial şəbəkələrin gündəlik ünsiyyətə yön verdiyi, yeni söz və ifadələrin sürətlə yayıldığı müasir dövrdə dillər də yeni sınaqlarla üzləşir. Belə bir vaxtda Azərbaycan dilinin zənginliyinin qorunması, dövlət dilinin nüfuzunun artırılması və gənc nəsildə düzgün nitq mədəniyyətinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Hər il avqustun 1-də qeyd olunan Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü də ana dilimizin keçdiyi inkişaf yoluna nəzər salmaqla yanaşı, onun müasir dövrün çağırışları fonunda necə qorunacağı və inkişaf etdiriləcəyi barədə düşünmək üçün bir fürsət yaradır. Bu səbəbdən Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor Sayalı Sadıqova ilə həmsöhbət olduq.**




**Süni intellekt və digər rəqəmsal texnologiyalar dövründə qarşımızda duran əsas vəzifə dilimizi dəyişikliklərdən təcrid etmək deyil. Vəzifəmiz dili zamanın tələblərinə uyğun inkişaf etdirməklə yanaşı, milli xüsusiyyətlərini və normativ əsaslarını qorumaqdır.**

# Rəqəmsal dövrdə Azərbaycan dilini necə qoruyaq?

*– Son illər süni intellekt həyatımızın ayrılmaz hissəsinə çevrilib. Sizcə, bu texnologiyalar Azərbaycan dilinin inkişafına hansı imkanları qazandırır və eyni zamanda hansı riskləri yaradır?*

– Bu gün cəmiyyətin bütün sahələrində süni intellektin təsiri diqqəti daha çox cəlb edir. Süni intellekt texnologiyalarından istifadə dilin inkişafına öz müsbət təsirini göstərir. İlk növbədə, Azərbaycan dilində məlumatın hazırlanmasını, tərcüməsini, redaktəsini və geniş auditoriyaya çatdırılmasını asanlaşdırır. Bu, həm də müxtəlif mövzularda mətnlərin yaradılmasını, dil öyrənənlərə kömək göstərilməsini, elektron lüğətlərin, tərcümə proqramlarının, nitqin tanınması və səsləndirilməsi sistemlərinin hazırlanmasını və dilimizin rəqəmsal imkanlarını da genişləndirir. Lakin süni intellektin əsas işləmə və düşünmə dili başqa dillər olduğundan bəzən Azərbaycan dilinin qrammatik quruluşuna uyğun olmayan cümlələrin yaradılması, dildəki kök və şəkilçilər əsasında uydurma sözlər yaratması, sözlərin üslub və məna baxımından düzgün seçilməməsi, başqa dillərin sintaktik strukturunun Azərbaycan dilinə tətbiq olunması halları izlənilir. Çünki süni intellekt nə qədər inkişaf etsə də, dil daşıyıcısının mədəni yaddaşını, milli düşüncə tərzini, sözlərin emosional çalarlarını hər zaman tam əhatəli şəkildə ifadə edə bilmir. Süni intellekt insanların dil haqqında məlumatlarının daha asan və tez əldə etməsinə, verilənlərdən istifadə edərək daha səmərəli işləməsinə şərait yaradır. Bu, həm də dilin inkişafı üçün yeni imkanlar açır. Buna görə süni intellekt sistemlərinin effektiv işləməsi üçün məlumatların düzgün və standartlaşdırılmış formata çevrilməsi vacibdir. Dilimizin zənginliyinin və saflığının gələcək nəsillərə çatdırılması üçün ana dilinə həssas yanaşılaraq düzgün və ədəbi normalara uyğun şəkildə işlədilməlidir.

*– Prezident İlham Əliyev Azərbaycan dilinin qorunması, dövlət dilindən düzgün istifadə və onun rəqəmsal məkanda mövqeyinin gücləndirilməsinin vacibliyini hər zaman xüsusi vurğulayıb. Bu çağırışlar fonunda Azərbaycan dilinin inkişafı üçün hansı istiqamətlər prioritet hesab edilməlidir?*

– Prezident İlham Əliyevin ana dilimizin qorunması, inkişaf etdirilməsi və saflığının saxlanılması, dövlət dilindən düzgün istifadə və onun rəqəmsal mövqeyinin gücləndirilməsi ilə bağlı fikirləri strateji əhəmiyyət daşımaqla yanaşı, qurumlar qarşısında mühüm vəzifələr də gündəmə gətirir. Bu çağırışlar fonunda Azərbaycan dilinin müasir dövrün tələblərinə uyğun inkişafı üçün terminologiya və kompüter dilçiliyi sahəsinə xüsusi fikir verilməlidir. Həmçinin Azərbaycan dilinin tətbiqi məsələlərinə, xüsusən elmdə, təhsildə, informasiya məkanında ədəbi dilin qorunması olduqca önəmlidir. Qloballaşma dövründə dünyada baş verən ictimai-siyasi proseslər, elmi-texniki tərəqqi ilə bağlı Azərbaycan dilinə daxil olan həddən artıq alınmalar dilin inkişafına təsir edir. Qloballaşma şəraitində Azərbaycan dilinin xarici təsirlərdən qorunması üçün dilimizin zəngin söz ehtiyatından, yeni anlayışların ifadəsində, ilk növbədə, dilimizin daxili imkanlarından istifadə edilməklə, leksik və üslubi zənginliyi qorunmalıdır. Alınmaların dilin daxili imkanları hesabına qarşılıqları yaradılmalı və istifadəyə verilməlidir. Ədəbi dilin qorunması media ilə bağlı qurumların, eləcə də telekanalların da öhdəsinə yeni vəzifələr qoyur.

**"Təhsil sahəsində dilin tədrisi müasir metodlarla zənginləşdirilməlidir"**

*– Bəs bütün bu çağırışlar fonunda Azərbaycan dilinin qorunması və inkişafı üçün hansı konkret addımlar atılmalıdır?*

– Burada ilk istiqamət Azərbaycan dilinin rəqəmsal bazasının genişləndirilməsidir. Dilin böyük həcmli elektron korpusunun yaradılması, müxtəlif dövrlərə, üslublara və sahələrə aid mətnlərin bu korpusda toplanması süni intellekt əsaslı platformaların Azərbaycan



dilini daha düzgün şəkildə istifadəsinə imkan yaradacaq.

Həmçinin təhsil sahəsində dilin tədrisi müasir metodlarla zənginləşdirilməlidir. Şagirdlərə yalnız qrammatik qaydaları öyrətmək kifayət deyil. Onlarda düzgün danışmaq, məntiqi və ardıcıl yazmaq, mətn yaratmaq, oxuduğunu təhlil etmək və fikrini əsaslandırmaq bacarığı formalaşdırılmalıdır. Rəqəmsal savadlılıqla dil savadlılığı paralel inkişaf etdirilməlidir.

Azərbaycan dilində fəaliyyət göstərən süni intellekt modellərinin, avtomatik tərcümə, nitqin tanınması, mətn redaktəsi və səsli köməkçi sistemlərin yaradılmasına dövlət, elm və özəl sektor səviyyəsində dəstək verilməlidir. Bu prosesə dilçilər, proqramçılar, terminoloqlar, tərcüməçilər və təhsil mütəxəssisləri birlikdə cəlb olunmalıdırlar. Ən başlıcası, dövlət dilindən düzgün istifadə yalnız rəsmi tələb kimi deyil, milli məsuliyyət və ictimai mədəniyyət göstəricisi kimi qəbul edilməlidir.

Süni intellekt və digər rəqəmsal texnologiyalar dövründə qarşımızda duran əsas vəzifə dilimizi dəyişikliklərdən təcrid etmək deyil. Vəzifəmiz dili zamanın tələblərinə uyğun inkişaf etdirməklə yanaşı, milli xüsusiyyətlərini və normativ əsaslarını qorumaqdır.

**"Tələbə süni intellektin yaratdığı mətni bütövlükdə öz işi kimi təqdim edirsə, burada ciddi problemlər yaranır"**

*– Bu gün məktəblilər və tələbələr referat, esse, hətta kurs işlərini süni intellekt vasitəsilə hazırlayırlar. Sizcə, bu proses gənclərin yazılı nitqinin inkişafına necə təsir göstərəcək?*

– Süni intellektdən təhsil prosesində düzgün istifadə edildikdə o, şagird və tələbələr üçün faydalı köməkçi vasitəyə çevrilir. Süni intellekt vasitəsilə mövzu haqqında ilkin məlumat toplamaq, plan hazırlamaq, mətnin strukturunu müəyyənləşdirəmək, fikirlərini sistemləşdirmək və yazdıqları mətndəki bəzi dil qüsurlarını aşkar etmək mümkündür. Bu texnologiya zəif yazı bacarığı olan şagirdlərə nümunələr təqdim etməklə yanaşı, söz ehtiyatının genişlənməsinə və fərqli ifadə vasitələrinin öyrənilməsinə kömək göstərə bilər. Lakin şagird və ya tələbə süni intellektin yaratdığı mətni bütövlükdə öz işi kimi təqdim edirsə, burada ciddi problemlər yaranır. Hazır mətnə alışan gənc müstəqil düşünmək, mövzu üzərində araşdırma aparmaq, fikirlərini ardıcıl şəkildə ifadə etmək və nəticə çıxarmaq bacarığını tədricən itirə bilər. Yazılı nitq yalnız düzgün cümlə qurmaq deyil, həm də təfəkkür tərzini, düşüncəni formalaşdırmaq prosesidir. İnsan yazarkən müqayisə edir, seçir, ümumiləşdirir və öz mövqeyini müəyyənləşdirir. Bu işi tamamilə texnologiyaya həvalə etdikdə düşüncə ilə dil arasındakı təbii əlaqə zəifləyir. Digər mənfi nəticə gənclərin dilində standart və bir-birinə bənzər ifadələrin artması ola bilər. Süni intellektin yaratdığı mətnlər çox vaxt ümumi, şablon xarakteri daşıyır və artıq fərdi üslub anlayışı aradan qalxır. Belə mətnlərdən davamlı istifadə edən şagird və ya tələbənin özünəməxsus yazı tərzinin, ifadə qabiliyyətinin formalaşmasına mane olur. Bundan əlavə, süni intellektin təqdim etdiyi materiallarda yanlış faktlara, uğursuz tərcümələrə rast gəlinir ki, bu da tapşırığın doğru yerinə yetirilməməsinə səbəb olur. Buna görə təhsil sistemində süni intellektdən istifadəni məhdudlaşdırmaq yox, əksinə, ondan düzgün istifadə edilməsi yolları təmin edilməlidir. Yəni süni intellekt insan intellektinin istifadəsində köməkçi vasitə kimi təqdim edilməli və şagirdlərə, tələbələrə ondan düzgün istifadə öyrədilməlidir.

**"Evdə düzgün danışıq mühitinin yaradılması gələcək nitq mədəniyyətinin əsasını təşkil edir"**

*– Bəs müəllimlər, valideynlər və gənclər süni intellekt dövründə ana dilinin qorunması və düzgün istifadəsi üçün nələrə diqqət yetirməlidirlər?*

– Müəllim yalnız hazır nəticəni deyil, işin hazırlanma prosesini də qiymətləndirməli, şagirddən istifadə etdiyi mənbələri göstərmək, süni intellektin yaratdığı mətni təhlil etmək, səhvləri müəyyənləşdirmək, mətni öz sözləri ilə yenidən işləmək və şifahi şəkildə ifadə etməyi də tələb etməlidir.

Süni intellekt gəncin əvəzinə düşünən müəllif deyil, onun düşünməsinə yardım edən vasitə olmalıdır. Əks halda texnologiyanın yaratdığı rahatlıq yazılı nitqin, müstəqil təfəkkürün və yaradıcılığın zəifləməsinə gətirib çıxara bilər. Müəllimlər uşaqlarda mütaliəyə maraq yaratmalı, onlara fikirlərini sərbəst, məntiqli və ədəbi dil normalarına uyğun ifadə etməyi öyrətməlidirlər.

Valideynlər də uşağın dil inkişafında mühüm rol oynayırlar. Uşaq ilk dil vərdişlərini ailədə qazanır. Evdə düzgün danışıq mühitinin yaradılması, uşaqların kitab oxuması, onların söz ehtiyatının zənginləşdirilməsi və qarışıq ifadələrdən uzaq tutulması gələcək nitq mədəniyyətinin əsasını təşkil edir. Gənclər isə Azərbaycan dilinin gələcək daşıyıcılarıdır. Sözləri bilərəkdən təhrif etmək, Azərbaycan əlifbasının hərflərini başqa işarələrlə əvəz etmək, fikri həddindən artıq qısaltmalarla ifadə etmək və xarici sözləri ehtiyac olmadan işlətmək tədricən dil vərdişlərinə təsir göstərir. Rəqəmsal mühitdə istifadə etdiyimiz dil bizim ümumi dil mədəniyyətimizin bir hissəsidir. Azərbaycan dilində keyfiyyətli elmi, bədii, publisistik və rəqəmsal məzmun yaratmaq da dilin qorunmasının ən təsirli yollarından biridir.

**"Azərbaycan dilinin tədris saatları artırılmalıdır"**

*– 1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə cəmiyyətə, xüsusilə müəllimlərə, valideynlərə və gənclərə hansı mesajı vermək istərdiniz?*

– Ümummmili Lider Heydər Əliyevin təşəbbüsü ilə hər il Azərbaycanda avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur. Azərbaycan dilinin qorunub inkişaf etdirilməsi müstəqillik illərində dövlətimizin və milli birliyimizin ən başlıca simvollarını qorumaq kimi dəyərləndirilməlidir. Azərbaycan dili xalqımızın qədim tarixini, mənşəyini, milli-mənəvi dəyərlərini yaşadan ən zəngin sərvətimizdir. Bu dil əsrlər ərzində formalaşaraq inkişaf etmiş, tariximizi, mədəniyyətimizi qoruyub saxlamış və müstəqil dövlətimizin əsas rəmzlərindən birinə çevrilib.

Azərbaycan dilini qorumaq hər kəsin borcudur. Bu gün Azərbaycan dilinin təhsildə, elm sahələrində, mediada tətbiqi daha da möhkəmləndirilməlidir. Ali məktəblərdə fəaliyyət göstərən qeyri-ixtisas fakültələrində Azərbaycan dilinin, nitq mədəniyyətinin tədrisinə xüsusi diqqət verilməlidir. Bu prosesin səmərəli olması üçün Azərbaycan dilinin tədrisinə verilən saatların miqdarı artırılmalıdır.

**Mərziyyə KAZIMZADƏ**

**XX əsr Azərbaycan humanitar fikri milli mədəniyyət tarixində yalnız bədii-estetik dəyərlərin deyil, həm də elmi təfəkkürün, filoloji metodologiyanın və ziyalı məsuliyyətinin formalaşdığı mühüm inkişaf mərhələsi kimi xarakterizə olunur. Bu dövrdə meydana çıxan görkəmli elm və ədəbiyyat xadimləri milli düşüncə sisteminin əsas istiqamətlərini müəyyənləşdirmiş, klassik irsin müasir elmi prinsiplərlə yenidən qiymətləndirilməsinə, Azərbaycan dilinin və ədəbiyyatının nəzəri əsaslarının zənginləşdirilməsinə mühüm töhfələr vermişlər. Həmin şəxsiyyətlər arasında Mir Cəlal Paşayev həm yazıçı, həm ədəbiyyatşünas alim, həm də pedaqoq kimi çoxşaxəli fəaliyyəti ilə xüsusi yer tutur. Mir Cəlal Paşayev haqqında aparılmış tədqiqatlar əsasən onun bədii yaradıcılığı, Füzulişünaslıq sahəsində xidmətləri, realist nəsrin inkişafındakı rolu və pedaqoji fəaliyyəti istiqamətində cəmlənmişdir. Onun "Bir gəncin manifesti", "Açıq kitab", "Dirilən adam" kimi əsərləri Azərbaycan nəsrinin klassik nümunələri kimi dəyərləndirilmiş, "Füzuli sənətkarlığı" kimi fundamental monoqrafiyası isə milli ədəbiyyatşünaslığın mühüm nailiyyətlərindən biri olaraq bu gün də qəbul edilir. Bununla belə, mövcud elmi ədəbiyyatda Mir Cəlalın yaradıcılığı əksər hallarda ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə araşdırılmış, onun yazıçılığı, alimliyi və müəllimliyi arasındakı mövcud daxili metodoloji əlaqələr sistemli şəkildə tədqiq edilsə də, görüləsi işlər qalmaqdadır. Təqdim olunan məqalənin əsas elmi problemi isə belə bir suala cavab vermək məqsədi daşıyır: Mir Cəlal Paşayevin yaradıcılığı müxtəlif fəaliyyət sahələrinin məcmusu kimi deyil, vahid filoloji düşüncə sisteminin təzahürü kimi necə izah oluna bilər?**



# Mir Cəlal nəsrinin poetikası

Tədqiqatımızın nəzəri hipotezi ondan ibarətdir ki, Mir Cəlal Paşayev Azərbaycan filoloji fikrində "inteqral filoloq" modeli olaraq yazıçılıq, ədəbiyyatşünaslıq və pedaqoji fəaliyyətində vahid intellektual sistemi necə ifadə edir? Bunun üçündür ki, onun yazıçılığı, ədəbiyyatşünaslığı və pedaqoji fəaliyyəti müstəqil istiqamətlər kimi deyil, vahid filoloji təfəkkür sisteminin qarşılıqlı əlaqəli komponentləri kimi nəzərdən keçirilir. Bu yanaşma Mir Cəlalşünaslıqda mövcud təsnifatları genişləndirməklə yanaşı, Azərbaycan filoloji fikrinin inkişaf tarixinin yeni nəzəri aspektdən dərk edilməsinə də xidmət edir.

Ədəbiyyatşünas Mir Cəlal həmin insanı estetik kateqoriyalar əsasında izah edirsə, müəllim Mir Cəlal estetik və etik dəyərləri yeni nəslə ötürür.

Beləliklə, yazıçılıq, alimlik və müəllimlik Mir Cəlal şəxsiyyətində bir-birindən ayrılan yox, vahid humanitar düşüncə sisteminin müxtəlif təzahürləri kimi çıxış edir. Məhz buna görə Mir Cəlal Paşayevi "inteqral filoloq" adlandırmaq mümkündür. Yazıçı Mir Cəlal insanı bədii obraz vasitəsilə dərk edir.

Buna görədir ki, onun gələcək yaradıcılıq uğurlarının əsası kimi qəbul etdiyimiz hekayələri əsasında ümumi mülahizələrdən konkret filoloji təhlilə keçə bilərik. Təhlilin predmeti kimi ilk olaraq Mir Cəlalın psixoloji nəsrinin ən uğurlu nümunələrindən olan "Leyla" hekayəsinin üzərində isə ona görə dayanırıq ki, burada dil, psixoloji detal, etik seçim və müəllif diskursu eyni mətndə birləşir.

Mir Cəlalın müharibə mövzusunda yazdığı hekayələri yalnız cəbhə hadisələrinin təsviri ilə məhdudlaşmır. Yazıçının əsas maraq dairəsi müharibənin insan şüurunda, psixologiyasında və mənəvi dünyasında yaratdığı dəyişikliklərin bədii ifadəsidir. Bu baxımdan "Leyla" hekayəsi xarici hadisələrin deyil, intizarın, ümidlə qorxu arasında qalan insan şüurunun poetikasını yaradan mətn kimi diqqəti cəlb edir. Hekayənin başlanğıcında müəllifin hadisədən çox psixoloji vəziyyəti təqdim etdiyi müşahidə olunur. Leyla ərindən xəbər ala bilmədiyi günlərdə dəfələrlə onun yola salındığı yerlərə gedir və həmin məkanla daxili dialoq qurur:

"Mir Əli! Mir Əli, sənin dalınca gəlmişəm... Heç nədən və heç kəsdən cavab gəlməzdi. Gəlinin çağırışı dərin və sirli sükut içində əriyərdi".

Bu fraqmentdə diqqəti çəkən ilk qabarıq cəhət sükutun poetik funksiyasıdır. Burada sükut sadəcə cavabsızlıq deyil, hadisənin fəal iştirakçısıdır. Leylanın çağırışı ilə təbiətin sükutu arasında yaranan qarşıdurma oxucuda psixoloji gərginlik yaradır. Mir Cəlal hadisəni dramatik təsvirlə deyil, səsin sükutda itib-batması ilə ifadə edir. Beləliklə, sükut semantik məna daşıyan bədii elementə çevrilir.

Narratoloji baxımdan maraqlı cəhət odur ki, müəllif hadisəni kənardan müşahidə etməsinə baxmayaraq, oxucu Leylanın daxili aləmini hiss edir. Bu effekt müəllif şərhlərinin çoxluğu ilə deyil, seçilmiş detallar vasitəsilə yaranır. Məhz buna görə Mir Cəlalın psixoloji nəsrindəki detal psixoloji analiz funksiyasını yerinə yetirir.

Hekayənin kulminasiya nöqtələrindən biri Mürsəlin məktubudur. Məktubun məzmunu zahirən sadə görünür: "Tanımadığınız bir əsgərin sizə kağız yazmağından təəccüblənməyin... Sizə deməli vacib sözüm var...".

Bu hissədə yazıçı psixoloji monoloqu klassik daxili monoloq formasında deyil, ardıcıl suallar vasitəsilə qurur. Sual cümlələrinin sıxlığı obrazın daxili narahatlığını sintaktik səviyyədə ifadə edir. Beləliklə, sintaksis psixoloji vəziyyətin göstəricisinə çevrilir. Məktubun ardınca Leylanın düşüncə axını daha da intensivləşir: "Hər sözün düzünə mənasını, məcazi mənasını axtardı... Bəlkə məndən gizlədir...? Bəlkə bu tamam ayrı Zibadır...?".

Bu parçanın filoloji əhəmiyyəti ondadır ki, müəllif hadisəni deyil, mənanın yaranması prosesini göstərir. Oxucu məktubun obyektiv məzmunundan çox, onun müxtəlif mümkün yozumlarını izləyir. Deməli, Mir Cəlal üçün psixoloji gərginlik hadisələrin özündən deyil, insan şüurunun həmin hadisələri necə şərh etməsindən doğur. Müəllif daha sonra Leylanın psixoloji vəziyyətini metaforik dillə təqdim edir: "İntizar və nigarançılıq isə amansız bir qızdırma kimi gəlini taqətdən salırdı. Ürəyi qəfəsdəki quş kimi çırpınırdı".

Burada diqqəti çəkən cəhət metaforaların sadəliyi və funksionallığıdır. Mir Cəlal mürəkkəb poetik obrazlar yaratmağa çalışmır, əksinə, ümumxalq dilində yaşayan bənzətmələrdən istifadə edərək emosional təsiri artırır. Bu xüsusiyyət onun üslubunun əsas əlamətlərindən biridir.

Hekayənin ən təsirli epizodlarından biri Leylanın balaca oğlu Tofiqin səhnəyə daxil olmasıdır: "Pişik balası kimi qapı ağzında dayanmış, anasının pərişan, müztərib vəziyyətinə baxırdı...".

Burada uşaq obrazı yalnız ailə üzvü deyil, emosional kontrast yaradan poetik vasitədir. Müəllif uşağın uzun təsvirini vermir; "pişik balası kimi" bənzətməsi onun kövrəkliyini və müdafiəsizliyini bir neçə sözlə ifadə edir. Bu, Mir Cəlalın bədii qənaət prinsipinə sadiqliyini göstərir. Hekayənin etik mərkəzi isə Mürsəlin davranışında açılır. O öz fiziki ağrısından çox dostunun taleyini düşünür və belə deyir: "Dünyada heç dostun, yaxşı dostun olmasın! Bu bir dərd deyil! Dərd odur ki, beləsi ola!... Mən onların məhəbbətinə bələdəm... bu sirri heç olmasa dava bitənə qədər saxlayın!".

Bu mətn parçası Mir Cəlalın etik dünyagörüşünü anlamaq üçün açar rolunu oynayır. Mürsəlin seçimi məcburi deyil, o, həqiqəti dərhal söyləyə bilərdi, lakin yazıçı qəhrəmanı mərhəmət və məsuliyyət arasında etik seçim edən insan kimi təqdim edir. Beləliklə, süjeti irəli aparan əsas amil hadisə deyil, mənəvi qərardır və "Leyla" hekayəsinin filoloji təhlili göstərir ki, Mir Cəlalın psixoloji nəsri xarici dramatizmdən daha çox daxili gərginliyə əsaslanır. Yazıçı bu gərginliyi üç əsas poetik vasitə ilə yaradır: sükutun semantikləşdirilməsi - deyilməyənlər deyilənlər qədər məna daşıyır; sual sintaksisi və daxili nitq - psixoloji narahatlıq dilin quruluşunda əks olunur; etik seçim - süjetin hərəkətverici qüvvəsi hadisələr deyil, qəhrəmanların vicdani qərarlarıdır. Bu xüsusiyyətlər isə "Leyla"nı təkcə müharibə hekayəsi deyil, insanın mənəvi dözümlülüyü və etik məsuliyyəti haqqında psixoloji novella kimi dəyərləndirməyə əsas verir.

Mir Cəlalın yaradıcılığında xüsusi çəkisi olan satirik-yumoristik diskursun poetikasını onun hekayə yaradıcılığında izləmək maraqlıdır. Bu cəhətdən "Dostumun qonaqlığı" hekayəsinin filoloji təhlili ümumilikdə Mir Cəlal Paşayevin satirik-yumoristik hekayələrinin Azərbaycan realist nəsrində xüsusi yerinin göstəricisi kimi də maraqlıdır. Həmin hekayələrdə gülüş heç vaxt məqsəd deyil, müəllifin etik mövqeyini ifadə edən bədii vasitəyə çevrilir. Yazıçının gülüşü insanı alçaltmır, onu mənəvi özünüdərketməyə sövq edir. Bu baxımdan "Dostumun qonaqlığı" hekayəsi Mir Cəlalın yumor poetikasını öyrənmək üçün ən xarakterik nümunələrdən biridir.

Hekayənin süjeti zahirən sadədir: kənddə tanış olduğu Mirzə Qulam danışığı, səmimiyyəti və qonaqpərvərlik vədləri ilə müəllifin təhkiyəsində olduqca inandırıcıdır, lakin sonradan onun davranışı tamamilə başqa məz-



mun kəsb edir. Mir Cəlal bu situasiyanı məişət hadisəsi kimi yox, insanın sözlə davranış arasındakı uyğunsuzluğunu göstərən etik model kimi qurur. Hadisələrin gedişində oxucu personajın özü və davranışı arasındakı ziddiyyətin içinə düşür.

Hekayənin əvvəlində Mirzə Qulam müəllimi tərifləmək üçün söz və ifadələrin seçimində xəsislik etmir: "...sənin kimi müəllimləri görəndə ürəyim dağlar boyda böyüyür... Çünki görürəm siz maarif barəsində, elm-ürfan barəsində doğrudan da çalışırsınız...".

Filoloji baxımdan burada diqqətiçəkən cəhət təkrar və hiperboladır. "Maarif barəsində", "elm-ürfan barəsində", "ürəyim dağlar boyda böyüyür" kimi ifadələr nitqin təbiiliyini deyil, onun nümayişkaranəliyini göstərir. Mir Cəlal oxucuya birbaşa "Mirzə Qulam ikiüzlüdür" demir, o, demək istədiyini özünəməxsus şəkildə, yalnız nitqin strukturu ilə hiss etdirir. Bu üsul isə klassik satiranın mühüm prinsiplərindən biridir: xarakter müəllif hökmü ilə deyil, personajın nitqinin mahiyyətində açılır. Burada müəllif danışmır, danışan personaj özü özünü ifşa edir və həmin ədəbi priyomun açılışı zamanı yumorun yaranma mexanizmini müşahidə edirik.

Səbirli oxucu bu detalı hekayənin ən güclü komik situasiyası Mirzə Qulamın qəfil pul istəməsi zamanı görür. Onun artıq qonaqlıq süfrəsini gözlədiyi məqamda Mirzə Qulam qəfildən dillənir: "...oradan cibindən bir on beş manat da mənə ver, vacib iş var...".

Burada Mir Cəlal komik effekti gözlənti ilə nəticə arasındakı ziddiyyət üzərində qurur. Oxucu düşünür: qonaq gələcək, süfrə açılacaq, ev sahibi xidmət göstərəcək.

Əksinə, ev sahibi qonaqdan borc alır. Bu gözlənilməz dönüş Aristotelin "peripetiya" anlayışını xatırlatsa da, Mir Cəlalda o, faciə yox, yumor doğurur. Məhz yaranan situasiyada müəllifin psixoloji ironiyasının şahidinə çevrilirik.

Mirzə pulu götürüb gedəndən sonra müəllif uzun müddət gözləyir. Burada hadisə baş vermir, ancaq psixoloji proses gedir. Mətn bunu çox incə təsvir edir: "...Gözüm qapıda, qulağım səsdə idi...".

Bir, cəmi bircə cümlədir, lakin burada bütöv bir psixoloji vəziyyət ifadə olunur. Oxucu da qəhrəman kimi gözləməyə başlayır və beləliklə, Mir Cəlalın oxucunu hadisənin müşahidəçisinə yox, iştirakçısına çevirdiyini görürük. Bu narrativ empatiyanın çox uğurlu nümunəsidir.

Müəllif yaradıcılığının ustalıqla toxunduğu məqamlarda onun məişət poetikasını necə incəliklə təqdim etməsini izləmək mümkündür. Bu, müəllifin təsvir etdiyi həyat səhnəsində belə təqdim edilir: "...arxın bulanıq suyundan, divar dibində eşələnən toyuqdan, əncir ağacının altında yatan ağ pişikdən başqa bir şey görmədim...".

Bu təsvir zahirən neytraldır, əslində isə müəllif oxucunu hara qədəm basdığı və orada hansı mənzərələlə rastlaşacağı barədə xəbərdar edir.

Burada həyat dayanmışdır, sükut hökm sürür, oxucu başa düşür ki, heç bir qonaqlıq hazırlanmır. Ətraf mühit qəhrəmanın aldadıldığını ilk xəbər verən "şahid"ə çevrilir. Burada Yuri Lotmanın- görkəmli eston ədəbiyyatşünası, mədəniyyətşünas və semiotikin dediyi kimi, “təsvir edilən semantik məkan prinsipini xatırladır: məkan sadəcə fon deyil, məna yaradan elementə çevrilir”.

Ona görə də müəllif ironiyasının xüsusiyyətləri Mir Cəlalın qəhrəmanını məsxərəyə qoymur, əksinə, “aldadılan” oxucuya hadisələrin gedişatı müəyyən sadəlövhlüklə təqdim edilir. Bu səbəbdən oxucu Mirzəyə yox, daha çox insan təbiətinə gülümsəyir və qeyd edək ki, həmin təqdimat forması Mir Cəlal yumorunun ən mühüm xüsusiyyətidir. Onun gülüşündə kin və qəzəb axtarmağa da dəyməz, çünki onun yumorunda nə bunlar, nə də insanı alçaltmaq istəyi yoxdur. Əksinə, Mir Cəlal üçün gülüş etik maarifləndirmə vasitəsidir. Orada nitqin xarakterik funksiyası elə o həqiqəti çatdırmağa hesablanıb ki, Mirzə Qulamın dili onun xarakterinin ifadəsinə çevrilsin və beləcə, müəllif portret vermədən onu danışdırır.

Məsələn, ardıcıl andlar, təkrarlar, şişirdilmiş komplimentlər, "sənin canına", "məni qəbrə öz əlinlə qoyasan" kimi ifadələr xalq danışıq üslubunun elementləri olsa da, burada səmimiyyət yox, nitq manipulyasiyası yaradılır.

Deməli, Mir Cəlal dialoqu informasiya ötürmək üçün yox, psixoloji ifşa vasitəsi kimi qurur. Bu, onun dramaturji təfəkkürünün də göstəricisidir.

Etik mənanı tapmasını oxucunun özünün öhdəsinə buraxmaq da müəllifin yaradıcılığında zərif elementlərindn biri kimi görünür. Mirzə Qulam qonağı yox, onun şəxsində insan etibarını istismar edir. Beləliklə, hekayənin əsas konflikti məişət konflikti deyil, etik konfliktdir. Burada bir daha təsdiqlənir ki, Mir Cəlal üçün süjet hadisələrin inkişafı deyil, mənəvi münasibətlərin sınağıdır.

Beləliklə, "Dostumun qonaqlığı" hekayəsində Mir Cəlalın satirik poetikasının əsas xüsusiyyətlərini aydın şəkildə nümayiş etdirdiyini izləyirik.

Bunun üçündür ki, nitqin semantikası-qəhrəmanın dilinin öz xarakterini müəllif şərhi olmadan açdığını, komik peripetiyasının yumor gözləntisi ilə nəticə arasındakı ziddiyyətdən yarandığını, məişət detalının poetikasında isə həyət, otaq, gözləmə və sükutun hadisənin etik mənasını dərinləşdirdiyini, ironiyanın humanist xarakterini - müəllifin insanı deyil, onun naqisliyini hədəfə aldığını görə bilirik. Bunlarla bərabər, bir hekayənin nümunəsində müəllifin etik diskursunu - gülüşün sosial tənqid vasitəsi olmaqla yanaşı, oxucunu etimad, səmimiyyət və mənəvi məsuliyyət haqqında düşünməyə sövq etdiyinin şahidi oluruq.

Bunun üçündür ki, Mir Cəlalın “sosialist realizmi” yox, "etik realizm" konsepsiyasından danışmağa üstünlük verməkdə israrlıyıq. Ona görə də onun satirik hekayələri üçün daha dəqiq bir anlayış təklif etmək olar: "etik yumor".

Bu anlayışla biz belə bir xüsusiyyəti nəzərdə tuturuq: Mir Cəlalda gülüşün məqsədi yalnız qüsuru ifşa etmək deyil, onu islah etməklə oxucuda mənəvi özünüdərketmə yaratmaqdır. Bu termin, əlbəttə, mövcud ədəbiyyatşünaslıq terminologiyasını əvəz etmir. Biz onu bu tədqiqatın analitik modeli kimi təqdim edib, konkret mətnlər üzərində əsaslandırmaqla ortaya qoymağa çalışdıq və düşünürük ki, bu yanaşma Mir Cəlalın yumor poetikasını daha dəqiq izah etməyə kömək edəcək.

Yeri gəlmişkən, indiyədək alimlər Mir Cəlalı daha çox realist yazıçı, satirik və psixoloq kimi xarakterizə ediblər. Biz isə təqdim olunan yazıda göstərməyə çalışdıq ki, Mir Cəlalın realizmi hadisələrin realizmi deyil, vicdanın realizmidir.

Onun əsərlərində insanın xarici taleyindən çox daxili mənəvi taleyi təsvir olunur. "Etik yumor" terminini yuxarıda təsadüfən işlətmədik.

Düşünürük ki, Sabirin satirası, M.F.Axundzadənin komediyası, Cəlil Məmmədquluzadənin ironiyası ilə Mir Cəlalın yumoru eyni hadisə deyil. Mir Cəlal gülüş vasitəsilə insanı cəzalandırmır, onu vicdanı ilə üzüzə qoyur. Bu, etik yumordur.

“Psixoloji sintaksis” ifadəsi də yazıda təsadüfi ifadə deyil və fikrimizi xüsusilə inkişaf etdirmək istərdik. Azərbaycan filologiyasında çox vaxt dil və psixologiya ayrı-ayrı araşdırılır, halbuki Mir Cəlalda cümlənin quruluşu insanın daxili vəziyyətini ifadə edir.

Mir Cəlal çox vaxt danışmır, susur, amma oxucu məhz o sükutda ən böyük mənanı tapır. Bu, sükutun poetikasıdr və qeyd edək ki, Azərbaycan nəsrində kifayət qədər araşdırılmamış sahədir.

Etik diskurs müəllifin bütün yaradıcılığında diqqəti xüsusilə çəkir. Oxucu onun da fərqində olur ki, Mir Cəlal üçün dil təkcə ünsiyyət vasitəsi deyil. Dilin əxlaqı var. Nitqin vicdanı var. Sözün məsuliyyəti var və bunlar çox ciddi filoloji məsələdir.

Ədəbiyyatşünaslıqda bədii detal haqqında çox yazılıb, ancaq Mir Cəlalda bəzi detallar sadəcə təsvir elementi deyil, obraz kimi danışır. Məsələn, bir stəkan, bir qapı, bir çinar, bir məktub, bir yol, bir pəncərə, bir susqunluq... Bunların hər biri mətnin fəlsəfi mərkəzinə çevrilə bilir. Ona görə də biz bunu "danışan detal" adlandırmaq, bu kiçik məqaləni isə Mir Cəlalı yenidən oxumağın metodu olaraq qəbul edilməsini istərdik.

Fikrimizcə, əsl filoloji tədqiqat məhz bunu bacarmalıdır: müəllif haqqında yeni faktlar toplamaqdan daha çox, onu yeni oxuma üsulu təklif etməlidir. Ona görədir ki, təqdim olunan kiçik yazıda onun hekayələri barədə danışmaq yox, onun mətnini “danışdırmağa” daha çox əhəmiyyət verdik. Hesab edirik ki, bu, filologiyanın başlıca vəzifələrindəndir: yazıçının əsərinə öz fikirlərimizi zorla tətbiq etməmək, əksinə, mətnin daxili məntiqini üzə çıxarmaq. Bu formatda yanaşma o həqiqəti ortaya qoyur ki, Mir Cəlal böyük yazıçı olduğu üçün böyük alim deyildi, böyük alim olduğu üçün böyük yazıçı idi və onun filoloji təfəkkürü bədii təfəkkürünü formalaşdırmışdı.

**Mahirə HÜSEYNOVA,**
**ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru,**
**filologiya elmləri doktoru, professor**

# "MÜƏLLİMİN PEDAQOJİ GÜNDƏLİYİ"

**Azərbaycan Gənc Müəllimlər Assosiasiyası (AGMA) və "Azərbaycan müəllimi" qəzetinin birgə təşkilatçılığı ilə 1 Avqust — Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününə həsr olunmuş "Müəllimin pedaqoji gündəliyi: Təcrübədən məqaləyə" adlı seminar keçirilib. Seminar AGMA və "Azərbaycan müəllimi" qəzetinin birgə layihəsi olan "Müəllimin pedaqoji gündəliyi" layihəsinin iştirakçılarını bir araya gətirib. Tədbirdə Bakı şəhəri ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarından gələn müəllimlər iştirak ediblər. İştirakçılar məktəbəqədər təhsil, ümumi təhsil, orta ixtisas, peşə təhsili və ali təhsil müəssisələrini təmsil edərək layihənin ölkənin bütün təhsil pillələrini əhatə edən geniş auditoriyaya malik olduğunu nümayiş etdiriblər. Seminarın əsas məqsədi müəllimlərin pedaqoji təcrübələrini elmi və publisistik yazı prinsiplərinə uyğun şəkildə məqaləyə çevirmək bacarıqlarını inkişaf etdirmək, yazının planlaşdırılması və təqdim olunması üzrə praktiki biliklər qazandırmaq, eyni zamanda süni intellekt alətlərindən etik və səmərəli istifadə bacarıqlarını gücləndirmək olub. Tədbirdə Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdir müavini, Rəqəmsal kommunikasiya, qurum və tərəfdaşlarla iş sektorunun müdiri Ayla Həsənova-Məmmədova, Media ilə iş sektorunun müdiri Billurə Hacızadə, "Azərbaycan müəllimi"nin baş redaktoru Sarvan İbrahimov, redaktor müavini Çingiz Səfərli, layihə iştirakçısı olan müəllimlər iştirak ediblər.**

## Təcrübələrini yazıya çevirənlər





### Müəllim öz təcrübəsini niyə hamı ilə bölüşməsin?

AGMA sədri Pərvinə Qədimova layihə barədə məlumat verib. "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Sarvan İbrahimov və baş redaktorun müavini Çingiz Səfərlinin təşəbbüsü ilə ərsəyə gələn layihənin uğurla icra edildiyini deyib: "Müəllim öz təcrübəsini niyə hamı ilə bölüşməsin?!", - deyən təşkilat sədri əlavə edib ki, iştirakçıların əsasən ümumtəhsil müəssisələrinin müəllimlərinin olmasına baxmayaraq, məktəbəqədər və peşə təhsili müəssisəsində çalışan müəllimlər, o cümlədər Qarabağ Universitetinin müəllimi də bu layihəyə qoşulublar.

### Müəllimi araşdırmaçı kimi yetişdirən layihə

Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdir müavini, Rəqəmsal kommunikasiya, qurum və tərəfdaşlarla iş sektorunun müdiri Ayla Həsənova-Məmmədova sinif otağından cəmiyyətə açılmağın sadə yollarından birinin yazmaq olduğunu deyib. O, yazmağın bir sıra üstün keyfiyyətlərini xatırladaraq "Müəllim nə üçün yazmalıdır?", - sualına müəllimlərlə birlikdə cavab tapmağa çalışıb. Yazı bacarıqlarını artıran layihənin başlıca məqsədlərindən biri müəllimin araşdırmaçı kimi yetişməsi olduğunu deyib.

### Pedaqoji təcrübənin kommunikasiya gücü

Elm və Təhsil Nazirliyinin İctimayyətlə əlaqələr və kommunikasiya şöbəsinin Media ilə iş sektorunun müdiri Billurə Hacızadə müəllimləri fəal müzakirələrə dəvət edərək onların müəllim kimi təcrübələrinə diqqət çəkib. Bu təcrübəni paylaşmağın əhəmiyyətini xüsusi vurğulayıb. Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ərəfəsində belə bir layihənin reallaşmasının əhəmiyyətini xüsusi qeyd edib. Müəllimin cəmiyyətdəki rolunu vurğulayaraq onun seçdiyi ünsiyyət metodunu şagirdin heç vaxt unutmadığını bildirib, pedaqoji təcrübənin kommunikasiya gücünə diqqət çəkib.

### Müəllimlər pedaqoji yazılar yazsın

"Azərbaycan müəllimi" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Sarvan İbrahimov müəllimdən müəllifə çevrilməyin sadə yollarından danışıb. Pedaqoji yazının mediada yeri və uğurlu məqalənin sirrinə diqqət çəkərək bu təşəbbüsün ortaya çıxma səbəblərinə toxunub. Qəzet redaksiyasına ünvanlanan pedaqoji yazıların son vaxtlar azaldığını söyləyib. O, müəllimlərin diqqətini yenidən pedaqoji yazılar yazmağa cəlb etməyin layihənin əsas məqsədi olduğunu da deyib.

### Yazılarda süni intellekdən səmərəli istifadə edilsin

Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri Səbinə Balayeva süni intellektdən etik və səmərəli istifadə etməklə məqalə hazırlamağın yollarından danışıb. Bu imkandan sinifdə də istifadə etməyin faydalarına toxunub.

Tədbirin sonunda müəllimlərə sertifikatlar təqdim edilib. Sertifikat alan müəllimlər öz təəssüratlarını bölüşüblər.

### "Heç danışmayan, özünə qapanan uşaqları fəallaşdırdım"

Elvin Məmmədov Salyan rayonundakı Kolanı kənd ümumi orta məktəbin müəllimidir: "İbtidai sinif müəllimi kimi öz fəaliyyətimdə yeniliklər etdim. Oxumayan, həvəssiz uşaqları dərsə cəlb etdim. Oynayaraq öyrənmək metodunu tətbiq edərək hətta inklüziv sinifdə yaxşı nəticələrə imza atdım. Əqli geriliyi olan, autizmli uşaqları təhsil almağa həvəsləndirdim. Heç danışmayan, özünə qapanan uşaqları fəallaşdırdım. Öz təcrübəmi bu layihə çərçivəsində yazıb onu bütün ölkənin müəllimləri ilə paylaşdım. Mən 6 ildir müəlliməm, onun 4 ilində bu metoddan istifadə etmişəm və nəticəmlə qürur duyuram".

3 nömrəli Xüsusi Ümumi Təhsil Məktəbinin müəllimi Gülnar Mirzəyeva "Azərbaycan müəllimi"nə layihədə iştirakından danışıb. İbtidai siniflərdə tədris aparan müəllim layihədə fərqlənənlərdən biridir: "Layihə barədə məlumat alan kimi iştirak etməyi düşündüm. Müəllimlərin təcrübələrini bölüşmələri elə iştirak deməkdir. Mən də öz təcrübəmi bölüşmək istədim, çünki xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək olmaq, onların inkişafını sürətləndirmək müəllim kimi borcumuzdur. İnklüzivlik məktəblərimizdə əsas tələblərdəndir. Bununla yanaşı, siniflərlə bərabər inteqrasiya sinifləri də yaradılır. Məhz xüsusi qayğıya ehtiyacı olan uşaqlarımızın təhsil alacağı həmin siniflərdə irəli sürdüyüm metodlar çox işə yarayacaq. "Yaxın inkişaf zonası" adlandırılan bu nəzəriyyə müəllimlərimizin köməyinə çatacaq".

### Dərsdə təcrübəsi ilə məşhurlaşdı, metodunu müəllimlərlə paylaşdı

Vüsalə Əliyevanı ictimaiyyətə "Azərbaycan müəllimi" tanıdıb. Dərsindən hazırladığı videonu yayaraq müəllimin təcrübəsini hələ layihədən əvvəl məşhurlaşdırıb: "Biologiya dərsində ürəkdən keçən qanı göstərən təcrübə barədə öz sosial şəbəkə hesablarımızda paylaşmışdım. Axşam evə gedəndə gördüm televizorda göstərirlər".

Beləliklə, ona layihə başlayanda təcrübəsini məqalə şəklində paylaşmaq qalıb. Yevlax şəhərindəki 9 nömrəli tam orta məktəbin "Biologiya" müəllimi, 5 nömrəli tam orta məktəbin metodistidir: "Azərbaycan müəllimi" qəzetini və sosial şəbəkə hesablarını izlədiyim üçün dərhal xəbər tutdum. Metodist kimi müəllimlərimizlə, həmkarlarımla paylaşmaqla yanaşı, öz təcrübəmi bölüşməyi də düşündüm. Layihə boyunca paylaşımlardan müəllimlərin geniş istifadə etdiklərini görəndə daha da həvəsləndim. Adımın qrupa əlavə olunmağından inanılmaz dərəcədə motivasiya aldım".

Şəmkir rayon Sahib Əliyev adına Ağlavaşlı kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi və metodisti Aysel Rüstəmova 2 məqalə verib: "Öz təcrübəmdən yazdığım 2 məqalə vermişəm. Onlardan biri artıq çap olunub. 15 ildir müəlliməm. Fəaliyyətimin ilk illərində çətinliklər yaşayırdım. Məqaləm yenicə müəllimlik fəalyyətinə başlayanlar üçün xüsusilə maraqlı olacaq. Məhz bir müəllimin qarşısına çıxan çətinliklərin öhdəsindən necə gələ biləcəyindən yazmışam. Öz araşdırmalarım və onların nəticəsindən ibarət olan məqalələrimin oxucu üçün maraqlı olacağını düşünürəm".

Balakən rayonunda ibtidai sinif müəllimi işləyən Ramazan Məmmədov 4 ildir ki, pedaqoji fəaliyyətlə məşğuldur. İnteqrasiya təlimli internat tipli gimnaziyanın müəllimi həm də robototexnika mentorudur: "Robototexnika yarışlarında mentor kimi öz komandamla iştirak edirəm. Sertifikatlaşdırma imtahanından 56 bal topladım. Bu nailiyyətlərimin arasında valideynlərlə iş də var. Valideynlərlə sıx-sıx görüşdüm, onları təlimlərə cəlb etdim. Mümkün qədər onlarla əməkdaşlıq etdim. Onlara seminarlar keçirdim. Rəqəmsal təhlükəsizlik önəmlidir. Valideynlərin rəqəmsal nəzarəti, uşaqlarla düzgün ünsiyyətin qurulması ilə bağlı təcrübələrimi məqaləmdə əks etdirdim".

**Ruhiyyə DAŞSALAHLI**

---

# Sehrli xalçada səyahət:
## Dinləyib-anlama bacarığının inkişafı

**Əminəm ki, uşaq olarkən hər birimiz bir anlıq gözlərimizi yumub adi otağı sehrli bir aləmə çevirmişik. Xəyalımızın sərhədsiz işıqları ilə ulduzların arasından sızaraq, sehrli xalçalara minib nağılların gizli qapılarını açmışıq. Obrazların yerində olmaq, onların davranışını dəyişmək və ya təkrarlamaq istəmişik. Bəzən bir nağılın səsi, bəzən bir obrazın davranışı bizi olduğumuz yerdən uzaqlara aparır, başqa aləmlərə qonaq edirdi. Biz böyüsək də, uşaq təxəyyülündə o xalça kimi bizi daşıdığı aləmlər heç vaxt unudulmur.**

Dinlədiyimiz nağıllarla səyahət etdiyimiz o aləmlər bizə bir həqiqəti göstərdi: dinləmək, sadəcə eşitmək deyil, hiss etməkdir.

Erkən yaşlardan başlayaraq uşaqlarda dinləyib-anlama bacarığının formalaşdırılması onların nitqinin inkişaf etməsində, təxəyyülünün, təsəvvür dünyasının genişlənməsində, mətn qavrayışının formalaşmasında böyük rol oynayır. Bu faktı əsas götürərək, şagirdlərdə bu bacarığı formalaşdırmaq məqsədi ilə fəaliyyətə rəng qatmaq, onların əylənərək öyrənməsini təmin etmək üçün biz də tez-tez "Sehrli xalça"mızla nağıllar aləminə səyahət edirik. Bu vərdiş bizdə artıq bir ənənəyə çevrilib.

Uşaqlar xalçanın üzərində toplaşdıqdan sonra sehrli səfərə başlayırıq. Əvvəlcə onlara xalçanın gizli sirri haqqında məlumat verirəm. "Bu xalça yalnız diqqətlə dinləyənləri nağıllar aləminə aparır". Bu cümlə şagirdlərin marağını daha da artırır və dərs boyu diqqət mərkəzinin qorunmasına kömək edir. Nağıl obrazların dili ilə, pauzalarla səsləndirirəm. Bu isə şagirdlərdə həmin səhnələri təsəvvürdə canlandırmağa imkan yaradır. Oxu zamanı müəyyən məqamlarda qısa dayanmalar edərək, onlara düşündürücü suallar ünvanlayıram. Mətn bitdikdən sonra da suallar davam edir. Şagirdlərə ardıcıllıq, səbəb-nəticə və obrazların



davranışları ilə bağlı suallar ünvanlayıram. Xüsusən də danışmağa çətinlik çəkən şagirdlərin xalça üzərində daha sərbəst cavab verdiyini müşahidə etmişəm.

Fəaliyyətin son mərhələsində isə yaradıcı refleksiya təşkil edirik. Hər bir şagirddən nağılın ən sevdiyi hissəsini təsvir etməsi, növbəti "xalça səyahətində" hara getmək istədiyini deməsi, nağılın hansı hissəsini dəyişmək istədiklərini və səbəbini izah etmələrini istəyirəm. Bu, həm uşaq təxəyyülünü gücləndirir, həm də dinlənilən mətnin uşağın daxili dünyası ilə birləşməsinə şərait yaradır. Bəzən də kiçik qutuya nağılla bağlı bir neçə simvolik əşya qoyuram. Hər şagird seçdiyi əşyanın nağıldan hansı məqamı xatırlatdığını ifadə edir. "Mən qəhrəmanın yerinə olsaydım..." cümləsi ilə qurulan refleksiya isə şagirdlərdə empatiya, daxili nitq və səbəb-nəticə əlaqələrini möhkəmləndirir.

Beləliklə, dinləyib-anlama dərslərində bu səyahətin təşkil edilməsi şagirdlərdə həm dinləmə, həm hissetmə, həm də düşünmə ilə bir körpü qurur. Dinləmə bacarığı təkcə məlumatı deyil, düşüncə və duyğunu da formalaşdırır.

**Vahidə AZAYEVA,**
**Bakı şəhəri 137 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi**

**Bu yazı "Azərbaycan müəllimi" qəzeti və Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının həyata keçirdiyi "Müəllimin pedaqoji gündəliyi" layihəsi çərçivəsində dərc olunur.**

# ADNSU-da abituriyentlər üçün "Açıq qapı" günü keçirilib




**İyulun 30-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) abituriyentlər üçün "Açıq qapı" günü təşkil olunub. Tədbirdə abituriyentlər və onların valideynləri olmaqla ümumilikdə 350 nəfər iştirak edib. ADNSU-nun akt zalında keçirilən tədbir universitetin infrastrukturu, təhsil imkanları və kampus həyatını əks etdirən tanıtım videoçarxının nümayişi ilə başlayıb. Tədbirdə çıxış edən ADNSU-nun rektoru, dosent Rüfət Əzizov universitetin son illərdə həyata keçirdiyi inkişaf strategiyası, tədrisin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq əməkdaşlıq imkanları və əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlığı barədə məlumat verib.**

Rüfət Əzizov bildirib ki, ADNSU-nun əsas hədəflərindən biri tələbələrə yalnız nəzəri biliklər vermək deyil, həm də onların müasir əmək bazarında tələb olunan praktiki, rəqəmsal və peşəkar bacarıqlara yiyələnməsini təmin etməkdir. Rektor universitetdə tədris proqramlarının yeniləndiyini, yeni ixtisas istiqamətlərinin yaradıldığını, laboratoriya və tədqiqat infrastrukturunun inkişaf etdirildiyini diqqətə çatdırıb.

Rektor ADNSU-nun beynəlxalq reytinqlərdə əldə etdiyi nəticələrdən də danışıb. Qeyd edib ki, universitet "QS World University Rankings 2027" reytinqində ötənilki 851—900-cü yer aralığından 711—720-ci yer aralığına yüksələrək təxminən 180 pillə irəliləyib. ADNSU, həmçinin "THE Sustainability Impact Ratings 2026" reytinqində 1501+ diapazonundan 601—800 diapazonuna yüksəlib.

Çıxış zamanı abituriyentlərə təqdim olunan beynəlxalq təhsil imkanlarına da toxunulub. Bildirilib ki, ADNSU-nun nəzdində fəaliyyət göstərən UFAZ-ın məzunları ADNSU ilə yanaşı, Fransanın Strasburq Universitetinin də əldə edirlər. Neft-qazmühəndisliyi ixtisasının tələbələrinə isə Renn Universitetinin diplomu təqdim olunur.

Rektor, həmçinin ADNSU ilə Böyük Britaniyanın Vorvik Universiteti arasında həyata keçirilən "Bərpa olunan enerji" ixtisası üzrə magistratura səviyyəli ikili diplom proqramı barədə məlumat verərək tələbələrin beynəlxalq akademik təcrübə əldə etmələri üçün yaradılan imkanlardan danışıb.



Rüfət Əzizov abituriyentlərə ixtisas seçərkən yalnız keçid ballarını deyil, öz maraqlarını, bacarıqlarını və gələcək karyera məqsədlərini də nəzərə almağı tövsiyə edib. O vurğulayıb ki, düzgün ixtisas seçimi gənclərin gələcək peşəkar inkişafında mühüm rol oynayır.

Tədbirin sual-cavab hissəsində abituriyentlər və valideynlər universitetə qəbul, tədris dilləri, yeni ixtisaslar, ikili diplom proqramları, akademik mobillik, xaricdə təhsil, təqaüd imkanları, istehsalat təcrübəsi və məzunların işlə təmin olunması ilə bağlı suallar ünvanlayıblar.

İştirakçıları, xüsusilə, "ADNSU-ya qəbul olduqdan sonra ikili diplom proqramına necə qoşulmaq olar?", "İngilis dilində tədris olunan ixtisaslar üçün hansı dil səviyyəsi tələb edilir?", "Tələbələrin xarici universitetlərdə bir semestr təhsil almaq imkanları varmı?", "Təcrübə proqramları hansı şirkətlərdə təşkil olunur?" və "Birinci kurs tələbələrinə hansı dəstək xidmətləri göstərilir?" kimi məsələlər maraqlandırıb.

Rektor və universitetin aidiyyəti struktur bölmələrinin nümayəndələri iştirakçıların suallarını cavablandıraraq qəbul prosesi və tələbələr üçün yaradılan imkanlarla bağlı ətraflı məlumat veriblər.

Tədbirin rəsmi hissəsi "AZIU himni"nin səsləndirilməsi ilə başa çatıb. Daha sonra abituriyentlər və valideynlər üçün universitet kampusu üzrə tanışlıq turu təşkil olunub. İştirakçılar Neft Muzeyi, Mineralogiya Muzeyi, Kibertəhlükəsizlik laboratoriyası, Azərbaycan—Türkiyə Dostluq Mərkəzi, Rəqəmsal Energetika laboratoriyası və Kitabxana-İnformasiya Mərkəzində yaradılan şəraitlə yaxından tanış olublar.

# "Yay Fest"in "Kreativ AI" düşərgəsi başa çatıb

**Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə təşkil olunan və bu il rəqəmsal inkişafa həsr olunan "Yay Fest 2026"nın 27-31 iyul tarixlərini əhatə edən "Kreativ AI" düşərgəsi uğurla yekunlaşıb. Düşərgənin əsas məqsədi gənclərin süni intellektdən yaradıcı alət kimi istifadə bacarıqlarını inkişaf etdirmək, onların kreativ düşüncəsini gücləndirmək və AI texnologiyasını incəsənət, media, dizayn, kontent istehsalı və rəqəmsal yaradıcılıq sahələrində tətbiq etməyi öyrətmək olub.**



Düşərgə iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin Şamaxı rayonunda yerləşən abidəsini ziyarət edərək xatirəsini ehtiramla yad ediblər. Daha sonra gənclər festival ərazisinə yola düşərək onlar üçün hazırlanan zəngin proqram ilə tanış olublar.

Düşərgənin ilk günü qonaq olan Azərbaycan Respublikasının xalq artisti Natiq Şirinov və "Natiq" Ritm Qrupu ritm sənəti, musiqinin insan həyatındakı rolu barədə gənclərlə fikirlərini bölüşüb, müxtəlif musiqi kompozisiyaları ilə çıxış edərək festivala fərqli ab-hava qatıblar.

Düşərgə müddətində gənclər ölkəmizin tanınmış əməkdar incəsənət xadimləri, aktyor heyəti, jurnalistləri, aparıcıları və süni intellekt mütəxəssislərinin iştirakı ilə baş tutan "Obrazlılıqdan süni intellektə", "Ekranın gələcəyi: Jurnalistika, media və texnologiya" və "Süni intellekt yaradıcılığı əvəz edir, yoxsa gücləndirir?" adlı panel görüşlərdə iştirak edərək interaktiv müzakirələrə qoşulublar.

Bununla yanaşı, düşərgə iştirakçıları müxtəlif master-klaslarda öz yaradıcılıqlarını nümayiş etdirib, "AI Vision" və "Cosplay Show" müsabiqələrində maraqlı kompozisiyalarla çıxış ediblər. "Da Vinçi", "Meloman" və "Kinoman" kimi intellektual yarışlar, həmçinin futbol, voleybol və stolüstü tennis turnirləri iştirakçıların asudə vaxtının səmərəli təşkili ilə yanaşı, komandalar arasında sağlam rəqabət ruhunun formalaşmasına töhfə verib.

"Yay Fest"in konsert proqramında gənclər sevimli müğənniləri - "AynaBand" qrupu, Eddie Bueno və Fərid Mərdin ifaları ilə əyləncəli vaxt keçirib, tonqal ətrafında toplaşaraq səmimi söhbətlər ediblər.

"Yay Fest"in üçüncü düşərgəsi də iştirakçılar üçün rəngarəng proqram, yeni dostluqlar və unudulmaz təəssüratlarla yadda qalıb.

İştirakçı sayına və müddətinə görə ölkənin ən böyük gənclər festivalı olan "Yay Fest" sentyabr ayınadək "Müasir Şəhərlər və Texnologiya", "Elm, Etika və Gələcək", "Mühəndislik və Kod", "Startap və Sahibkarlıq", "AI — İdman və Sağlamlıq" mövzuları üzrə növbəti düşərgələrlə davam edəcək.

"Yay Fest 2026" Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, İDEA İctimai Birliyinin tərəfdaşlığı, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, Azərbaycanlı Tələbələr və Məzunlar Platforması, "CAVAN" Gənclər Hərəkatı İctimai Birliyi, "Böyük Qayıdış" Gənclər Təşkilatı və "Gənc Könüllülər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilir.




# 5 qat RFO qalibi Qarabağ Universitetini seçib



**Respublika və beynəlxalq olimpiadalarda qazandığı uğurlarla fərqlənən Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyinin məzunu Yaqub Baratlı ali təhsilini Qarabağ Universitetində davam etdirmək qərarı verib.**

Yaqub Baratlı son beş il ərzində kimya fənni üzrə həm ölkə daxilində, həm də beynəlxalq arenada mühüm nailiyyətlər əldə edib. O, 2022-ci ildə Respublika fənn müsabiqəsində gümüş, 2023-cü ildə Respublika fənn olimpiadasında bürünc, 2024, 2025 və 2026-cı illərdə isə Respublika fənn olimpiadalarında ardıcıl olaraq qızıl medallara layiq görülüb.

Gənc olimpiadaçı beynəlxalq yarışlarda da Azərbaycanı uğurla təmsil edib. O, 2024-cü ildə Rumıniyanın Buxarest şəhərində keçirilən Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasında (IJSO) bürünc, 2026-cı ildə Rusiyanın Moskva şəhərində təşkil olunan Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında (IMChO) bürünc, eləcə də Özbəkistanın Daşkənd şəhərində keçirilən Beynəlxalq Kimya Olimpiadasında (IChO) gümüş medal qazanıb.

Qazandığı uğurlardan sonra ali təhsil seçimini Qarabağ Universitetindən edən Yaqub Baratlı bu ali təhsil müəssisəsində kimya sahəsində bilik və bacarıqlarını daha da inkişaf etdirməyi hədəfləyir.



# BMU-nun 22 məzunu dünyanın nüfuzlu universitetlərində təhsil alacaq

**Bakı Mühəndislik Universitetinin (BMU) 22 məzunu Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində təhsil almaq hüququ qazanıb.**

2026/2027-ci tədris ili üzrə Dövlət Proqramının nəticələrinə uyğun olaraq, xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində magistratura səviyyəsində təhsil almaq hüququ qazanan 353 nəfərdən 20-si, doktorantura səviyyəsində təhsil almaq hüququ əldə edən 22 nəfərdən isə 2-si BMU məzunudur.

Dövlət Proqramının iştirakçısı olan BMU məzunlarından 14-ü Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında, 6-sı Amerika Birləşmiş Ştatlarında, 1-i İtaliya Respublikasında, 1-i isə Finlandiya Respublikasında yerləşən nüfuzlu ali təhsil müəssisələrində təhsil alacaq.

2027-ci il üzrə QS dünya universitetləri reytinqinə əsasən, BMU məzunlarının qəbul olunduğu ali təhsil müəssisələrindən 2-si dünyanın ilk onluğunda, 3-ü ilk iyirmiliyində, 17-si isə ilk yüzlüyündə qərarlaşıb.

Məzunlar "University of Cambridge", "University College London" (UCL), "Columbia University", "University of Edinburgh", "University of Manchester", "King's College London", "University of Warwick", "London School of Economics and Political Science", "University of Glasgow", "Johns Hopkins University", "Duke University", "University of Birmingham", "New York University", "University of Washington", "University of Sheffield" və digər nüfuzlu ali təhsil müəssisələrində təhsillərini davam etdirəcəklər. Onlar kompüter elmləri, süni intellekt, data elmi, kibertəhlükəsizlik, proqram təminatı mühəndisliyi, kompüter mühəndisliyi, elektrik və elektronika mühəndisliyi, maşınqayırma mühəndisliyi, enerji sistemləri mühəndisliyi, inşaat mühəndisliyi, maliyyə, biznesin idarə edilməsi, riyaziyyat, iqtisadiyyat və digər prioritet ixtisas istiqamətləri üzrə təhsil alacaqlar.

Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramının əsas məqsədi gənclərin dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almaları üçün əlverişli imkanların yaradılması, ölkənin dayanıqlı sosial-iqtisadi inkişafına töhfə verəcək, yüksək ixtisaslı, innovativ düşüncəyə malik və beynəlxalq əmək bazarının tələblərinə cavab verən insan kapitalının formalaşdırılmasıdır.

BMU məzunlarının Dövlət Proqramında əldə etdiyi növbəti uğur universitetdə həyata keçirilən keyfiyyət yönümlü təhsil siyasətinin, beynəlxalq əməkdaşlıq əlaqələrinin və yüksəkixtisaslı kadr hazırlığı istiqamətində görülən məqsədyönlü fəaliyyətin mühüm nəticələrindən biridir.

# HÜSEYN ƏHMƏDOV - 100



**Hüseyn Mustafa oğlu Əhmədov haqqında bu sətirləri yazarkən bir anlığa düşüncələrə daldım. Məqaləni necə başlayım? İlk növbədə nəyə diqqət yetirim? Ərəblərin bir atalar sözü yadıma düşdü: "Alim odur ki, sözü, fikri, əməli bir ola". Gözəl deyilmiş fikirdir! Alim sözündə, fikrində, əməlində dürüst olmalıdır. Onun diqqətəlayiq elmi ilə gözəl şəxsiyyəti vəhdət təşkil etməlidir. Əks təqdirdə "Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir" (Aristotel). Anadan olmasının 100 illiyini qeyd etməyə hazırlaşdığımız akademik Hüseyn Mustafa oğlu Əhmədov sözü ilə əməlinin, elmi ilə şəxsiyyətinin kamilliyi ilə seçilirdi. Pedaqoji ədəbiyyatda bu böyük şəxsiyyəti "pedaqogika elminin sonuncu mogikanı" adlandırırdılar. Həmin fikirdə həqiqət vardır. Akademik pedaqogika sahəsində çoxsaylı elmi kadrlar hazırlamışdı. Aspirant, dissertant və doktorantları onun qayğısını görmüş, xeyirxahlığından qidalanmış, elmin enişli-yoxuşlu yollarında inamla addımlamış, fəlsəfə doktoru, elmlər doktoru, dosent, professor elmi adlarına yiyələnmişlər. Mütəfəkkirlər məhz belə şəxsləri, belə insanları, elm nümayəndələrini nəzərdə tutaraq demişlər: "Alimlərin qayğısı altında olan camaat, atasının qucağındakı uşaq kimidir".**

## Azərbaycanda pedaqogika elminin inkişafında mühüm rol oynamış alim

Hüseyn Əhmədov Toxluca kənd orta məktəbi müəllimliyindən professorluğa, akademikliyə kimi son dərəcə mənalı həyat yolu keçmiş, şərəfli ali məktəb müəllimi və alim kimi fəaliyyət göstərmişdir. Nəinki respublikamızda, həmçinin keçmiş SSRİ məkanında, MDB ölkələrində, Türkiyə Respublikasında şöhrət tapmışdır.

Hüseyn Əhmədov yetirmələri ilə söhbət zamanı onlara pedaqogika elminin özəlliklərini və gözəlliklərini anlatmaqla yanaşı, deyirdi ki, elmin çətin, daşlı-kəsəkli yollarında nə qədər uğurlu addımlar atsanız da, lovğalanmayın, özünüzü öyməyin, təvazökar olun, bilin ki, "Elmin hüdudları üfüqü xatırladır: nə qədər çox yaxınlaşırsansa, o qədər çox uzağa çəkilir" (Pyer Büast). Ağıllı adamlarla oturub-durun. "Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin (Əbülhəsən Bəhmənyar).

Onun ibrətamiz öyüd-nəsihətlərindən faydalanan yetirmələri anlayırdılar ki:

**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca rütbədən biliniz, fəqət,**
**Alimin rütbəsi ucadır əlbət.**
**(Nizami Gəncəvi)**

**Uşaqlıq və təhsil illəri, əmək fəaliyyəti.** Hüseyn Əhmədov 1926-cı il iyulun 17-də Qərbi Azərbaycanın Yeni Bəyazid qəzasının Toxluca kəndində rəncbər ailəsində dünyaya gəlmişdir. Kənd məktəbində təhsil alarkən onda müəllimliyə böyük həvəs və sonsuz maraq oyanmışdır. Təbii ki, onda bu peşəyə sevgi və məhəbbəti, heyranlığı dərs aldığı müəllimlər, onların davranış və rəftarı, müəllim-şagird münasibətlərini düzgün qurmaları, uşaqlara öz övladları kimi yanaşmaları, nəzəri və metodik hazırlığa yiyələnmələri yaratmışdı. Balaca Hüseyn evə verilmiş tapşırıqları yerinə yetirərkən, tədris olunmuş mövzunu öyrəndikdən sonra ayaq üstə qalxar bir müəllim səriştəliliyi ilə danışardı. Bir şagird kimi yox, bir müəllim kimi. Müəllimini yamsılayaraq. Heç də təsadüfi deyildir ki, IX sinifdə oxuyarkən ona ibtidai siniflərdə dərs demək tapşırıldı. Sevincinin hədd-hüdudu yox idi. Arzularının qanadlarında əvvəlcə sənədlərini K.Setkin adına Gəncə Pedaqoji Texnikumuna, sonradan Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə verdi. Ali məktəbdə yaxşı oxuduğuna, tələbə yoldaşlarından savadına, davranışına görə fərqləndiyinə görə Lenin komsomolu təqaüdünə layiq görülmüşdür.

1947-ci ildə - texnikum, 1951-ci ildə institut təhsilini başa vurdu. Gəncə (keçmiş) Kirovabad Pedaqoji İnstitutunda baş laborant və Gəncədəki Toxuculuq Texnikumunda tarix müəllimi kimi çalışır (1951-1952-ci illər). İnstitutda müəllim işləsə də, onda pedaqoji elmlərə böyük maraq vardı. Tədqiqatlara qoşulmaq, elmin daşlı-kəsəkli yollarında addımlamaq istəyirdi. Bu yolun ağırlığını bilsə də. Əzmkar və iradəli idi. Müəllimlər müəllimi olmaq arzusunda idi.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (hazırda universitet) aspirant (1952-1955), doktorant (1968-1970) oldu. Ömrünün sonuna kimi bu ali təhsil müəssisəsində çalışdı.

Professor Əhməd Seyidovun elmi rəhbərliyi ilə "İbtidai sinif şagirdlərinin əxlaq tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları" (1958) və akademik Mehdi Mehdizadənin elmi məsləhətçiliyi ilə "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" mövzusunda doktorluq (1972) dissertasiyalarını müdafiə etdi, professor (1977) oldu.

Bir müddət (1957-1958) Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda (hazırda Təhsil İnstitutu) kiçik elmi işçi işlədi.

Taleyini Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (hazırda universitet) bağladı. Uzun illər bu universitetin Ümumi pedaqogika kafedrasına rəhbərlik etdi. O, universitetin tarixində bu kafedranın ən uzun müddət (50 ilə yaxın) müdiri olmuş şəxsdir.

**Pedaqogika elminə töhfələri.** Akademik Hüseyn Əhmədov başlıca olaraq pedaqogika tarixçisidir. Məktəb və pedaqoji fikir tarixinə dair çoxsaylı əsərlərin, tədqiqatların müəllifidir. Qeyd etdiyimiz kimi, XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixini hərtərəfli araşdırmış, diqqətəlayiq dissertasiya və monoqrafiya yazmışdır. Məktəb tarixinə dair başqa əsərləri də vardır. Pedaqoji fikir tarixinə gəldikdə isə, üzü Nizami Gəncəvidən tutmuş son dövr mütəfəkkirləimizin (Nəsirəddin Tusi, Mirzə Şəfi Vazeh, M.F.Axundzadə, Məhəmməd ağa Şaxtahtlı, Mahmud bəy Mahmudbəyli, Fərhad Ağazadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Nəriman Nərimanov və b.) əsərlərini öyrənmiş, pedaqoji görüşlərini sistemləşdirmiş, ümumiləşdirmiş və diqqət mərkəzinə gətirmişdir.

Həmin materiallar akademikin "Azərbaycan məktəb və pedaqoji fikir tarixindən" dərsliyində öz ifadəsini tapmışdır (2001).

Nəriman Nərimanovun pedaqoji görüşləri isə Hüseyn müəllimin xüsusi tədqiqat obyekti olmuş, bu məsələlərlə bağlı bir neçə kitab çap etdirmişdir.

H.M. Əhmədov təkcə pedaqogika tarixi ilə öz elmi yaradıcılığını məhdudlaşdırmamış, pedaqogikanın nəzəri məsələlərinə, eyni zamanda məktəbə rəhbərlik və təhsilin idarə olunmasına, məktəbşünaslığa aid də bir sıra tədqiqatlar aparmışdır. Tarixi mənbələri araşdırmaqla, Azərbaycan, Gürcüstan, Rusiya və Ermənistan arxivlərində günlərlə işləməklə, Azərbaycan məktəblərinin yaranması, inkişafına dair son dərəcə qiymətli materiallar toplamış və respublika pedaqoji ictimaiyyətinə çatdırmışdır. O, SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü idi.

Müxtəlif vaxtlarda - İrəvanda, Tiflisdə, Səmərqənddə, Daşkənddə və Moskvada rəsmi opponent, Müdafiə Şuralarının üzvü, sədr müavini və sədri kimi fəaliyyət göstərib. Elmi rəhbərliyi ilə 60-a yaxın fəlsəfə və elmlər doktoru yetişib.

### Akademik Hüseyn Əhmədov haqqında

**Hüseyn Əhmədovun pedaqogika elminin inkişafındakı xidmətlərindən danışarkən Rusiya Təhsil Akademiyasının prezidenti, akademik N.D.Nikandrov yazırdı: "Hüseyn Əhmədovun geniş yaradıcı diapazonu, pedaqogika tarixi və nəzəriyyəsinin aktual problemlərinin həlli sahəsində onun cəsarətli addımları, alimin orijinal ideyaları pedaqoji fikir mühitində böyük hörmət qazanmağa imkan vermişdir. O, respublikada mükəmməl məktəb yarada bilmişdir".**

**Mənbələrdə qeyd olunmuş aşağıdakı fikirlə biz də şərikik: "Əhmədov Azərbaycan pedaqoji fikir tarixinin sistemləşdirilməsində və bu sahənin müstəqil tədqiqat istiqaməti kimi formalaşmasında mühüm rol oynamış, bu sahənin elmi əsasları ilə bağlı yol xəritəsi müəyyənləşdirmişdir. Onun elmi araşdırmaları nəticəsində pedaqogika tarixinin bir sıra az öyrənilmiş məsələləri elmi dövriyyəyə daxil edilmişdir". (professor İ.Bayramov)**

**"Hüseyn Əhmədov alim-pedaqoq, müəllim, professor, rəhbər, neçə-neçə akademiyaların üzvü olmaqla bunların hər birində öz orijinal ziyalı şəxsiyyəti ilə Azərbaycan məktəbşünaslığının patriarxı kimi tanınır... Fikrimizcə, alimin ömründə iki məqam onun xoşbəxtliyinin rəhni, qarantıdır. Bunlardan biri onun ailə həyatıdırsa, ikincisi ömrünü-gününü həsr etdiyi elm sahəsidir. Hüseyn müəllimin taleyində bu iki qanadın hər ikisi qibtə ediləsidir". (akademik Teymur Əhmədov)**

**"Akademik Hüseyn Əhmədovla ilk tanışlığım doktorant olduğum vaxtlara təsadüf edir. O kafedra müdiri idi. Mən hansı bir məsələ ilə bağlı onun yanına getmişdim. Kafedrada mövcud olan səliqə-sahman, sakitlik orada hökm sürən elmi mühitin nişanəsi idi. Mənimlə onun arasında vəzifə iyerarxiyası baxımından böyük məsafə olmasına baxmayaraq, əlindəki işi kənara qoydu, məni dinlədi, məsləhətini verdi, fikirlərini bildirdi". (Hikmət Əlizadə)**

**Təltifləri.** "SSRİ Maarif əlaçısı", Əməkdar ali məktəb işçisi, Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdü. Prezident təqaüdçüsü idi.

Azərbaycan-Rusiya əlaqələrinin inkişafındakı səmərəli fəaliyyətinə görə, "Dolq i çest" ("Şərəf və ləyaqət") ordeni, K.D. Uşinski adına medalı, RTA-nın "Elmdə nailiyyətlərinə görə" qızıl medalı, eyni zamanda "Türk dünyasına xidmət" qızıl medalı ilə mükafatlandırılmış, Rusiya Təhsil Akademiyasının qızıl medalına və Fəxri Fərmanına layiq görülmüşdü.

**Əsərləri:** İlk növbədə, qeyd etmək lazımdır ki, Hüseyn Əhmədovun 30 cilddən ibarət "Seçilmiş əsərlər"i işıq üzü görmüşdür. Bundan başqa, akademikin müxtəlif illərdə "XIX əsr Azərbaycan məktəbi", "Azərbaycan məktəb və pedaqoji fikir tarixindən: Ali təhsil müəssisələri üçün dərslik", "Xatirələrim və ya nəslimizin şəcərəsi", "Azərbaycan məktəb və pedaqoji fikir tarixi", "Nəriman Nərimanovun pedaqoji fikirləri", "Nəriman Nərimanov" (həyatı, fəaliyyəti, pedaqoji və tibbi fikirləri), "Azərbaycanda pedaqoji fikrin inkişafı haqqında", "Maarif fədailəri: Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev-150"; "Uşaqların tərbiyəsində valideynin şəxsi nümunəsi", "Pedaqogikaya giriş", "100 yaşlı Yuxarı Salahlı kənd məktəbi", "İdarəetmənin pedaqogika və psixologiyası, "Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər" və b. kitabları, dərslik və monoqrafiyaları nəşr edilmişdir.

**Dərsliklərimizi transliterasiya və faksimiliya yolu ilə yenidən nəşr etdirməsi sahəsində fəaliyyəti.** Bu, son dərəcə faydalı, əhəmiyyətli iş, xeyirxah və diqqətəlayiq fəaliyyətdir. Akademik XIX yüzilliyin ikinci yarısı və iyirminci yüzilliyin əvvəllərində Təbrizdə, Tiflisdə, Bakıda ərəb əlifbası ilə nəşr edilmiş dərsliklərimizin transliterasiyası və faksimiliyası ilə məşğul olaraq, bu istiqamətdə nəcib iş görərək onların yenidən nəşrinə nail olmuşdur. Onları diqqət mərkəzinə gətirək: Üzeyir Hacıbəylinin "Hesab məsələləri"ni (Bakı, 1907), Rəşid bəy Əfəndiyevin "Uşaq bağçası" (Tiflis, 1912), "Bəsirət-ül-ətfal (Bakı, 1901), S.Vəlibəyovun Qüdrəti-Xuda" (Tiflis, 1888), A.Çernyayevski və S.Vəlibəyovun "Vətən dili" (II hissə, Tiflis, 1888), N.Dementyevin "Təmsillər və hekayələr"(Tiflis, 1839), İ.Qriqoryevlə M.Ş.Vazehin "Kitabitürki" (Təbriz, 1855), A.O.Çernyayevskinin "Vətən dili"(I hissə, Tiflis, 1882) və s. yenidən nəşr etdirmişdir.

Akademik Hüseyn Əhmədovla tanışlığım ötən əsrin 70-ci illərinə təsadüf edir. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu (hazırda ADU) bitirib təyinatla Sabirabad rayonu Şıxsalahlı və Qaragüney kənd məktəblərində ingilis dili müəllimi işləyirdim. Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda (hazırda Təhsil İnstitutu) yeni bir şöbə - Tərbiyənin ümumi problemləri şöbəsi yaradılmışdı. Şöbə üzrə müdir, kiçik elmi işçi, baş elmi işçi vəzifələrini tutmaq üçün müsabiqə elan edilmişdi. Mən də müsabiqədə iştirak etmək üçün sənədlərimi təqdim etmişdim. Müsabiqədən keçdim, kiçik elmi işçi vəzifəsində işə götürüldüm. Tədqiqatla bağlı müxtəlif təhsil müəssisələrində olur, təhsilə aid tədbirlərdə iştirak edirdik. Belə tədbirlərdə professor Hüseyn Əhmədovla görüşürdüm, əsərlərindən faydalanırdım. Bu, şəxsi tanışlıq idi.

Bir dəfə instituta gəlmişdi. Mənə müraciətlə dedi: "Sənin köməyin lazım olacaq". Soruşdum ki, nə məsələdir.

O vaxtlar ümumtəhsil məktəblərini tədris planlarına yeni fənn - Ailə həyatının etika və psixologiyası fənni daxil edilmişdi. Professor Əbdül Əlizadə ilə mən 2 fənnə aid proqramı, "Ailə" dərsliyini, "Ailə həyatının etika və psixologiyası" və "Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat" dərs vəsaitlərini yazmış, fənnin proqramını hazırlamışdıq.

Hüseyn müəllim:

"Mənə televiziyada "Ailə həyatının etika və psixologiyası" ilə bağlı veriliş aparmaq tapşırılıb. Əvvəla, dərslik və dərs vəsaitlərinizi mənə də verin. İkincisi, o verilişi birlikdə aparaq. Sən problemə yaxın şəxsən. Gərək mənə kömək edəsən", - dedi.

Təbii ki, razılaşdım. Ayda bir, yaxud iki dəfə veriliş olurdu. Məktəblərlə, valideynlərlə əlaqələr saxlayır, verilişlərin maraqlı və canlı olmasına çalışırdıq.

Mənim Hüseyn müəllimlə bu, artıq yaradıcı, işgüzar əməkdaşlığım idi.

İllər ötdü. Əməkdaşlığımız daha da genişləndi.

Bir gün acı xəbər aldıq: Hüseyn müəllim haqq dünyasına qovuşub. Pedaqogika elminin ağsaqqalına, şah damarına görə çox kədərləndik. Təsəllimiz bu oldu ki, akademik qəlbimizdə əbədi yaşayır, yazdıqlarından, danışdıqlarından, dediklərindən, məsləhətlərindən daim bəhrələnirik.

Bu böyük şəxsiyyətin, görkəmli alimin - akademik Hüseyn Əhmədovun, anadan olmasının 100 illiyi tamam olur. Allah bu gözəl insana, akademikə rəhmət eləsin!!!

**Akif ABBASOV,**
**Təhsil İnstitutunun elmi katibi,**
**pedaqogika elmləri doktoru,**
**professor, Əməkdar müəllim**

# Ölkə birincisi Sumqayıt məktəblisi

## "Zamanı idarə etməyi bacarmalısan"



**Abşeron-Xızı Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Sumqayıt şəhər Təbiət elmləri təmayüllü gimnaziyanın məzunu Samir Tağızadə IV ixtisas qrupu üzrə hər iki mərhələnin cəminə görə 700 bal toplayaraq ən yüksək nəticəni göstərib. "Azərbaycan müəllimi" ölkə birincisi ilə həmsöhbət olub.**

Samir Tağızadə bildirir ki, IX sinifdə keçirilən buraxılış imtahanında 294, XI sinifdə isə 300 bal nəticə göstərib: "Yüksək nəticə əldə etmək üçün şagirdlər həm düzgün istiqamətdə çalışmalı, həm də vaxt bölgüsünü idarə etməyi bacarmalıdırlar, istirahət üçün özlərinə kifayət qədər vaxt ayırmalıdırlar".

Samir səkkizinci sinifdə fizika fənni üzrə RFO-da iştirak edib və bürünc medal qazanıb. Eyni zamanda X sinifdə "Əlaçı" verilişinin qalibi olub".

"Blok imtahanı mənə görə buraxılış imtahanından daha asan keçdi. Blok imtahanında sualları vaxta görə cavablandırmaq daha rahat idi".

Samir Azərbaycan Tibb Universitetində oxumağı planlaşdırır: "Daha sonra təhsilimi xaricdə davam edib cərrahiyyə sahəsi üzrə həkim işləmək istərdim".

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**

# Qarabağın maksimal bal toplayan yeganə məzunu



## "Bu şəxsi nailiyyət deyil, böyük qürur hissidir"

**Dövlət İmtahan Mərkəzinin iyulun 12-də keçirdiyi ali təhsil müəssisələrinə qəbul imtahanının nəticələrinə əsasən uğurlu məzunların adları məlum olub. Belə ki, IV ixtisas qrupu üzrə Qarabağ regionundan bir nəfər - Sinavər Cəbizadə maksimum nəticə göstərib. İstedadlı yeniyetməmiz hər iki mərhələnin cəminə əsasən isə 692.1 bal toplayıb.**

Sinavər Füzuli rayon 50 nömrəli tam orta məktəbin məzunudur. O, qazandığı uğurun arxasında məqsədyönlülük, zəhmət və özünəinamın dayandığını bildirir.

"Azərbaycan müəllimi" ilə sevincini bölüşən Sinavər deyir ki, Qarabağ regionu üzrə ən yüksək nəticəni əldə etmək onun üçün təkcə şəxsi nailiyyət deyil, həm də böyük qürur hissidir: "Bu nəticəmə görə çox sevinirəm. Hesab edirəm ki, əzmkar və inamlı olmaq insanı qarşıya qoyduğu məqsədinə çatdırır. Azərbaycan Tibb Universitetində təhsil almaq arzusundayam. Gələcəkdə peşəkar həkim kimi tanınmaq istəyirəm".

Sinavərin əldə etdiyi yüksək nəticə bir daha göstərir ki, zəhmət çəkmək, məsuliyyətli olmaq və düzgün hədəf seçimi böyük uğurların əsas açarıdır.

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**

# Tələbə futzal komandamızdan Avropa Universitet Oyunlarında uğurlu nəticə

**15—25 iyul tarixlərində İtaliyanın Salerno şəhərində keçirilən və Avropa Universitet İdmanı Assosiasiyası (EUSA) tərəfindən təşkil olunan Avropa Universitet Oyunlarında ölkəmiz stolüstü tennis və futzal üzrə təmsil olunub. Futzal yarışlarında ölkəmizi Azərbaycan Tələbə Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümünün qalibi Azərbaycan İdman Akademiyasının komandası təmsil edib.**




Komandamız yarış ərzində güclü İspaniya, Norveç, Portuqaliya komandalarını məğlub edərək final mərhələsinə yüksəlib və turniri ikinci yerdə başa vurub. Yarışın yekununda komandamızın üzvü Ədalət Ələkbərov turnirin simvolik ən yaxşı beşliyinə seçilib.

Qeyd edək ki, Azərbaycan İdman Akademiyasının komandası Avropa Universitet İdmanı Assosiasiyasının (EUSA) təşkil etdiyi yarışlarda ötən il Avropa çempionu adına layiq görülüb. Bu il isə ardıcıl ikinci dəfə finala yüksələrək turniri ikinci yerdə başa vurub və ölkəmizi uğurla təmsil edib.

Azərbaycan İdman Akademiyasının komandasının Avropa Universitet Oyunlarında iştirakı Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının və Azərbaycan İdman Akademiyasının dəstəyi ilə təmin olunub.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 6868 **Sifariş:** 971

**Məsul növbətçi:** S.Kərimova

# BDU-nun tələbəsi Çin Tibb Universitetində tam təqaüdlə təhsil alacaq



**Bakı Dövlət Universitetinin Kimya fakültəsinin tələbəsi İnci Mikayıllı təhsilini Çin Tibb Universitetinin Klinik tibb fakültəsində “Scholarship” proqramı ilə davam etdirəcək. O, təqaüd proqramı çərçivəsində Çin dilində tam təqaüdlə təhsil almaq hüququ qazanıb. İnci Mikayıllı proqram üzrə keçirilən CSCA imtahanlarında yüksək nəticə göstərərək universitetin klinik tibb ixtisasına qəbul olub. O, Bakı şəhəri 165 nömrəli tam orta məktəbin məzunudur. O, orta məktəbdə təhsil aldığı illərdə yüksək akademik göstəriciləri, kimya elminə marağı və müxtəlif bilik yarışlarında fəal iştirakı ilə seçilib.**

Kimya fənni üzrə respublika və beynəlxalq səviyyəli yarışlarda uğurla çıxış edən İnci orta təhsilini əla qiymətlərlə başa vurub.

Uşaqlıqdan həkim olmağı arzulayan İnci Mikayıllı bu məqsədinə çatmaq üçün məktəb illərindən etibarən təbiət elmlərinə, xüsusilə kimya və biologiya fənlərinə xüsusi maraq göstərib. Orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Kimya fakültəsinə (tədris ingilis dili) qəbul olunan tələbə burada qazandığı nəzəri bilikləri gələcək tibb təhsili üçün mühüm baza kimi dəyərləndirib.

BDU-nun ikinci kursunda təhsil aldığı müddətdə o, təqaüd proqramı çərçivəsində Çin Tibb Universitetinə müraciət edib. Qəbul prosesinin müvafiq mərhələlərini uğurla keçən, CSCA imtahanlarında yüksək nəticə göstərən tələbə tam təqaüdlü təhsil imkanı əldə edib.

Çin dilində klinik tibb təhsili almaq İnci Mikayıllı üçün yalnız yeni bir akademik mərhələ deyil, eyni zamanda fərqli səhiyyə sistemi, tibbi yanaşmalar və beynəlxalq təcrübə ilə yaxından tanış olmaq imkanıdır. O, təhsil müddətində Çin dilini yüksək səviyyədə mənimsəməyi, fundamental və klinik tibb üzrə biliklərini dərinləşdirməyi, müasir diaqnostika və müalicə üsullarını öyrənməyi qarşısına məqsəd qoyub.

İnci gələcəkdə peşəkar və savadlı həkim kimi yetişməyi, klinik fəaliyyətlə yanaşı, elmi-tədqiqat işlərində də iştirak etməyi planlaşdırır. Onun əsas arzularından biri xaricdə qazandığı bilik və təcrübəni gələcəkdə Azərbaycanda tətbiq etmək, insanların sağlamlığının qorunmasına töhfə verməkdir.

O, həmçinin Azərbaycan və Çin arasında tibb, təhsil və elmi əməkdaşlığın inkişafına öz töhfəsini verməyi, beynəlxalq tibbi mühitdə ölkəsini layiqincə təmsil etməyi qarşısına məqsəd qoyub.

İnci Mikayıllının əldə etdiyi bu nəticə onun uzunmüddətli zəhmətinin, məqsədyönlülüyünün və həkimlik peşəsinə olan marağının göstəricisi olmaqla yanaşı, Azərbaycan gənclərinin beynəlxalq təhsil imkanlarından uğurla yararlana bildiyini nümayiş etdirir.

# Etibarsız sayılır

**Ucar rayon** Qaradağlı kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Süleymanov Emil Əlisahib oğluna verilmiş A-313141 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qaradağlı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Azayeva Gülnar Mütəllim qızına verilmiş B-112477 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 310 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Əlizadə Aydın Fərid oğluna verilmiş E-679594 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** tam orta internat məktəbi (inteqrasiya təlimli internat tipli gimnaziya) 2005-ci ildə bitirmiş İsmayılova Elnarə Ramis qızına verilmiş B-182148 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 15 nömrəli tam orta məktəbi (indiki texniki və Humanitar fənlər liseyi) 2007-ci ildə bitirmiş Cəfərova Nərmin Şaban qızına verilmiş B-405049 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədova Elvira İntizam qızına verilmiş B-584602 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Əyyubova Sədaqət İbrahimxəlil qızına verilmiş A-365947 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Sarıyataq kənd tam orta məktəbin IX sinfini (məktəb hazırda fəaliyyət göstərmir) 2009-cu ildə bitirmiş Umarlı Calal Çingiz oğluna verilmiş A-851321 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Əfəndiyeva (Abbasova) Ruhiyyə Kamran qızına verilmiş A-024816 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli məktəb-liseyi 2007-ci ildə bitirmiş Quliyev Ələkbər Məhbub oğluna verilmiş B-432711 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 85 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Abbasova Günay Afiq qızına verilmiş A-414521 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 265 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Məmmədova Aytac Bəhruz qızına verilmiş E-210450 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Mamırlı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Cəfərli Şəhriyar İlham oğluna verilmiş E-185798 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 296 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Mustafayev Halay Hacı oğluna verilmiş E-279632 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 283 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Kərimova Şəms Samir qızına verilmiş E-795585 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2019-cu ildə Məmmədova Fidan Elvin qızına verilmiş C-040769 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Rəsulov Mirzeynal Kərim oğluna verilmiş A-141722 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Quliyev Vahid Zaman oğluna verilmiş AK-837381 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Gəncə filialı** tərəfindən 2008-ci ildə Həsənova Gülnar İbrahim qızına verilmiş B-121365 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 48 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Göyüşova (Məhəmmədova) Kəmalə Surxay qızına verilmiş 282930 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2010-cu ildə Xələfzadə Əli Bəxtiyar oğluna verilmiş B-192598 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli məktəb-liseyi 1994-cü ildə bitirmiş Şirəliyeva Səadət Şirəli qızına verilmiş 074206 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Moranlı kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Təhməzli Rüfanə Nizami qızına verilmiş A-572385 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Ərəbuşağı kənd tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Əliyarbəyli Samir Hikmət oğluna verilmiş A-726965 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 72 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Həsənov Həmid Arif oğluna verilmiş E-193615 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarasız sayılır.

**11 nömrəli Texniki Peşə Məktəbi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1991-ci ildə Zudin Aleksandr Yuryeviçə verilmiş 480752 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2024-cü ildə Şahvələdov Əli Məzahir oğluna verilmiş C-211575 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına hərbi liseyi** 1993-cü ildə bitirmiş Tuxtarov (Məmmədli) Rövşən Mikayıl oğluna verilmiş A-047738 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2015-ci ildə Mikayıllı Qumru Eldar qızına verilmiş AM-008498 nömrəli magistr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Samux şəhər** 1 nömrəli məktəb-liseyi 2014-cü ildə bitirmiş Quliyev Rufin Rüfət oğluna verilmiş A-383895 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1989-cu ildə Abbasova Azadə Vəli qızına verilmiş PB-035331 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Gəncə kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Abbasova Lətifə Mirzə qızına verilmiş A-594669 nömrəli ümumi orta təhsil haqqında attestat və 2017-ci ildə verilmiş E-056850 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2019-cu ildə Qurbanova Zərif Maarif qızına verilmiş C-025187 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Əliağa Vahid adına Masazır kənd 1 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Hüseynova Xuraman Mahir qızına verilmiş E-782325 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Texniki və Təbiət Elmləri Liseyini 1994-cü ildə bitirmiş Əlirzayeva Fidan Vahid qızına verilmiş tam orta təhsil haqqında (nömrəsiz) attestat itdiyi üçün etibarsız sayılır.